Günəş Şərqdən doğur!

№ 196 (5717), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 27 oktyabr 2022-ci il (cümə axşamı)

## DİM nə etdiyini özü də bilmir

Dünyanın heç bir ölkəsində IX sinif şagirdinə bu qədər işgəncə verilmir



Dövlət İmtahan Mərkəzi 2022-2023-cü tədris ilində ümumi (9 illik) orta təhsil səviyyəsində təşkil olunan buraxılış imtahanında xarici dillər üzrə şagirdlərin bilik və bacarıqlarını yoxlayan test tapşırıqlarının forma və məzmununda gözlənilən dəyişikliklərin detallarını açıqlayıb.

(Səh.8)

## Dəqiq məlumatlar var

Ağdam, Cəbrayıl və Laçında məzarlıqlar minalanıb



**"Ağdam rayonunun Yusifcanlı və Qarağacı, Cəbrayılın Cocuq Mərcanlı, Laçın rayonunun Suarası kəndlərində yerləşən məzarlıqların minalanmasına dair dəqiq məlumatlar var".**

Bu barədə "Şərq"ə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat Xidmətindən məlumat verilib.

(Səh.6)



## Anar növbəti dəfə sədr seçilib

Azərbaycan Yazıçılar Birliyinin qurultayı keçirilib

**Dünən Azərbaycan Yazıçılar Birliyinin (AYB) XIII qurultayı keçirilib.**

Əvvəlcə qurultay iştirakçıları Fəxri və Şəhidlər xiyabanlarını ziyarət ediblər. Sonra qurultay Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında öz işinə başlayıb.

Azərbaycan Yazıçılar Birliyinin dəvətilə Qurultayda Türkiyə, Rusiya, Litva, İsrail, Pakistan, Gürcüstan, Almaniya, İraq, Belarus və İrandan iyirmidən çox qonaq qatılıb.

(Səh.5)




# Alov genişlənir

## ABŞ İrandakı etirazlardan məmnundur

**İran genişmiqyaslı mitinqlərin 44-cü gününü yaşayır. Hakimiyyət daxilindəki qovğalar, üstəgəl, İran İslam Respublikasının xarici agentura şəbəkəsinin meydançasına çevrilməsi aksiyaların xarakterini mürəkkəbləşdirir.**

Ən son məlumatlara əsasən, İranın 11 vilayətinin ən azı 13 şəhərində aksiyalar davam edir və tələbələr mitinqlərin hərəkətverici qüvvəsinə çevrilir. İranın yürütdüyü xarici siyasət kursu, xüsusilə son zamanlar Rusiyanın Ukraynadakı müharibədə qələbə qazanmasını təmin etmək üçün ona kamikadze dronlar verməsinin siyasi nəticələri ölkə daxilinə mənfi sirayət edir.

(Səh.5)



## Ev telefonlarının aylıq abunə haqqı artırıldı

Qərar noyabrın 1-dən qüvvəyə minəcək

**Azərbaycanda sabit şəbəkə telefonlarından istifadəyə görə aylıq abunə haqqının əhali üçün 2,5 manatdan 3,5 manata (ƏDV daxil olmaqla) çatdırılıb, şəhərlərarası telefon danışıqları üzrə tarif isə 5 qəpikdən 3 qəpiyə endirilib.**

Bununla bağlı qərar Tarif Şurasının bu gün keçirilmiş növbəti iclasında qəbul edilib.

Məlumata görə, bununla bağlı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təklifləri qəbul edilib.

Qərar noyabrın 1-dən qüvvəyə minəcək.

# Yasamalda su borusu partlayıb

## Bu hələ harasıdır, zamanla belə hadisələri çox görəcəyik



**Yeni Yasamal massivinin Əsəd Əhmədov küçəsindən keçən magistral su xətti partlayıb. Qəza baş verən borunun ətrafını su basıb, avtomobillərin gedişində çətinlik yaranıb. Aidiyyəti qurumlar tərəfindən qəzanın fəsadlarının aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülüb.**

"Paytaxtın Yeni Yasamal massivinin Əsəd Əhmədov küçəsindən keçən magistral su xəttinin partlaması ilə əlaqədar olaraq yolun hərəkət istiqamətinin çökməsi, həmin küçə və prospektin digər paralel küçə və prospektlərlə hərəkət istiqamətlərində yolların müvəqqəti məhdudlaşdırılması tərəfimizdən həyata keçirilib, hərəkətin tam bərpa olunması aidiyyəti qurumların rəyinə əsasən təmin olunacaq".

(səh.12)



## Putin son variantı hazırlayır

Rusiya ordusu nüvə silahı təliminə başladı

**Rusiya Silahlı Qüvvələri nüvə silahlarının təlimini keçirir.**

Bunu Rusiyanın müdafiə naziri Sergey Şoyqu deyib.

Rusiya KİV-in yaydığı məlumata görə, quru, dəniz və hava strateji çəkindirmə qüvvələrinin təlimi Rusiya Prezidenti Vladimir Putinin rəhbərliyi altında keçirilir.

Təlimə qanadlı raketləri buraxan uzaqmənzilli "Tu-95MS" təyyarələri də cəlb olunub.

(səh.8)



## Sən AZADsan, Azərbaycan!

*Şəhidimizə rekviyem*

(səh.9)



## Gürcüstan hökuməti siqaret çəkənlərin sayını azaldıb

Millət vəkili təklif edir ki, siqaretin qiymətini 30-40 manata qaldırmaq lazımdır

(səh.6)

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nüfuzu dünyada artır

## Prezident İlham Əliyev Mərkəzin nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.**

İsmail Serageldin son dövrlərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nüfuzunun dünyada daha da artdığını vurğuladı, beynəlxalq təşkilatlar və bir sıra ölkələrin aparıcı institutları ilə birbaşa əlaqələrinin yaradıldığını dedi. O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

İsmail Serageldin Mərkəzin təsis olunmasının 10 illik yubileyi münasibətilə xatirə hədiyyələrini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yubileyi münasibətilə təbriklərini çatdırdı və yubileyin Bakıda qeyd edilməsinin rəmzi xarakter daşıdığını bildirdi. Dövlətimizin başçısı Mərkəzin beynəlxalq səviyyədə əməkdaşlığının genişlənməsindən, dünyada rolunun və nüfuzunun artmasından məmnunluğunu ifadə etdi.

Görüşdə vurğulandı ki, Azərbaycan Prezidentinin himayəsi altında Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən hər il keçirilən Qlobal Bakı Forumu artıq bütün dünyada aktual məsələlərin müzakirə olunduğu və onların həlli istiqamətində yeni yanaşmaların təklif edildiyi beynəlxalq platforma kimi qəbul olunur.

İsmail Serageldin bildirdi ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu il ərzində Çində və Polşada həmin ölkələrin prezidentlərinin himayəsi altında keçirilən beynəlxalq konfranslarda, BMT Baş Assambleyası çərçivəsində ABŞ-da, Cenevrədə Ümumdünya Səhiyyə Təşkilatı və BMT-nin Cenevrə ofisi və Berlində Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə təşkil olunan tədbirlərdə, həmçinin Yaponiyada baş tutan Texnologiya Sammitində və Latviyanın paytaxtında keçirilən "Riqa konfransı 2022"də tərəfdaş kimi çıxış edib.

## AMEA-nın prezidenti seçilmiş İsa Həbibbəylinin vəzifəsi təsdiqləndi



**Prezident İlham Əliyev İ.Ə.Həbibbəylinin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsinə təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağında Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilmiş İsa Əkbər oğlu Həbibbəyli bu vəzifəyə təsdiq edilib.

## "Azərbaycan Dəmir Yolları"na sədr təyin olundu



**Prezident İlham Əliyev R.M.Rüstəmovun "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Rövşən Mürvət oğlu Rüstəmov "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilsin.

## Qida Təhlükəsizliyi Agentliyi Aparatının işçilərinin say həddi artırılıb

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Aparatının işçilərinin say həddi artırılıb.**

Bu, Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmanda əksini tapıb.

Fərmana əsasən, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Aparatının işçilərinin say həddi 150, regional bölmələrinin işçilərinin say həddi 900 ştat vahidi müəyyən edilib.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Aparatının işçilərinin say həddi 135, regional bölmələrinin işçilərinin say həddi 665 ştat vahidi müəyyən edilmişdi.

## ABŞ Rusiya və İrana qarşı sanksiyaları genişləndirib

**ABŞ Rusiyaya qarşı sanksiyaları genişləndirib. APA TASS-a istinadən xəbər verir ki, bu barədə ABŞ Maliyyə Nazirliyi məlumat yayıb.**

Sanksiya siyahısına 8 nəfər və 12 təşkilat daxil edilib.

ABŞ eyni zamanda, İrana qarşı sanksiyaları genişləndirib. Belə ki, İranda davam edən iğtişaşlara dəstək verdiyi üçün 14 məmura və 3 quruma sanksiya tətbiq edilib.

## Gürcüstan ordusunda yeni komandanlıq yaradılacaq



**Gürcüstan Müdafiə Nazirliyi kibertəhlükəsizlik komandanlığı təsis etməyi planlaşdırır.**

Trend-in məlumatına görə, bu barədə bu gün nazirliyin mətbuat xidməti bildirib.

Qeyd olunur ki, yeni komandanlıq Gürcüstan Silahlı Qüvvələrinin strukturuna daxil olacaq.

Hazırda Gürcüstanda Müdafiə Nazirliyinin tərkibində kibertəhlükəsizlik bürosu fəaliyyət göstərir. Bu qurum 2014-cü ilin fevralında yaradılıb.

# "Böyük millət - güclü dövlət" əsas hədəfdir

## Azərbaycan modernləşmə yolu ilə irəliləyir

**Oktyabrın 26-da Sosial Tədqiqatlar Mərkəzində "Böyük millət - güclü dövlət: müasir Azərbaycanın yeni ideoloji xətti" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbirdə Milli Məclisin deputatları, ekspertlər, KİV nümayəndələri iştirak ediblər.**



Milli Məclisin deputatı, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyəti sədrinin müavini Elşad Mirbəşiroğlu müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunub saxlanılmasının vacibliyini vurğulayıb və bu amal uğrunda mübarizə aparmağın, onun keşiyində durmağın hər bir Azərbaycan vətəndaşının vəzifəsi olduğunu qeyd edib. Bildirilib ki, Azərbaycan Vətən müharibəsindən sonra bütün layihələrdə yeni obraz kimi iştirak edir. "Təbii ki, buna qədər də bizim inkişaf göstəricilərimiz yaxşı olub. Amma etiraf etmək lazımdır ki, torpaqlar işğal altında olanda hamımız narahat idik. İndi Azərbaycan Ordusunun qüdrəti sayəsində torpaqlarımız azaddır və güclü Azərbaycan daha da güclənib. Azərbaycançılıq ideyasının əsas hədəfi son nəticədə güclü Azərbaycanı qurmaq idi. Prezident İlham Əliyevin strateji baxışları azərbaycançılıq ideologiyasının əsasında duran arzuları təmin edə bildi. Ulu öndər bildirmişdi ki, taleyüklü planların İlham Əliyev tərəfindən yerinə yetiriləcəyinə inanır. Bu gün Azərbaycan qüdrətli dövlətdir. "Böyük millət - güclü dövlət" ideologiyası artıq bizim yeni siyasi xəttimiz kimi görünə bilər. Bu baxımdan da "dəyirmi masa"nın mövzusu yeni ideoloji baxışlarla bağlıdır. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyasının əsas məqsədi güclü və qüdrətli Azərbaycan yaratmaq idi. Biz bu məqsədə nail olmuşuq".

Deputat diqqətə çatdırıb ki, hazırda Azərbaycanın qarşısında yeni inkişaf meyarları dayanır. Ölkəmiz, həmçinin qlobal meyarlara təsir göstərmək və konstruktiv qərarlar qəbul etmək imkanına malikdir.

**Daha sonra çıxış edən Milli Məclisin deputatı, Elm və təhsil komitəsinin sədr müavini, professor Musa Qasımlı Azərbaycanın güclü dövlət olmaq yolunda keçdiyi çətinliklərdən bəhs edib.** O bildirib ki, güclü dövlət quru sözlərlə deyil, hər zaman ədalətli qanunlarla qurulur. 1993-cü ildən sonrakı dövr güclü dövlətin yaradılmasının başlanğıcı idi. Musa Qasımlı diqqətə çatdırıb ki, modernləşməyən dövlət məhvə məhkumdur. Azərbaycan məhz modernləşmə yolu ilə irəliləyir. Azərbaycan Prezidentinin vurğuladığı kimi, dövlətin, millətin güclü və qüdrətli olması üçün tələb edilən amillərdən biri də məhz budur. Bildirilib ki, milli şüur, milli özünüdərk və milli hərəkat millətin formalaşmasında çox mühüm amillərdir.

"Böyük millət - güclü dövlət" ideologiyasının əhəmiyyətini qeyd edən Milli Məclisin deputatı ölkəmizin multikultural ənənələrindən də danışıb. O, Azərbaycanda yaşayan müxtəlif azsaylı xalqların bir nəfər kimi Vətən müharibəsinə qoşulduqlarını, mərdliklə mübarizə apardıqlarını vurğulayıb: "Bizim dövlətin təməlində sabitlik dayanır. Bizə etnik deyil, dövlət milliyyətçiliyi lazımdır. Güclü hədəflərə çatmaq üçün güclü dövlət olmalıyıq. Güclü dövlətin güclü lideri də olur".

Fəlsəfə və Sosiologiya İnstitutunun Baş direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə çıxışında bildirib: "Böyük millət sözü böyük ideoloji anlayışdır. Bu, ideoloq alimlərin və ideoloji işlər sahəsində ixtisaslaşan şəxslərin məşğul olmalı olduqları işdir. Çünki bu dövlətlərin bir millət kimi funksiyalaşması asan məsələ deyil. Şuşa Bəyannaməsi də bu mövzunun təcəssümüdür. Azərbaycanın əməkdaşlıq əlaqələri təkcə Türkiyə ilə deyil, digər dövlətlərlə də var. Müasir Azərbaycan qalibdir və müasirlik həmişə inkişafda olmaq deməkdir".

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor Tahirə Allahyarova, Bakı Avrasiya Universitetinin elmi işlər üzrə prorektoru, siyasi elmlər doktoru, professor Gülzar İbrahimova, Milli Məclisin deputatı Fazil Mustafa və siyasi şərhçi Samir Hümbətov çıxışlarında "Böyük millət-güclü dövlət" ideologiyasının aspektlərindən danışıblar. Bildirilib ki, regionda yeni reallıq yaradan Azərbaycanın gücü, qüdrəti getdikcə artır və nüfuzu möhkəmlənir. Millət və dövlət olaraq daha sıx birləşməli və məqsədlərimizə doğru inamla irəliləməliyik.

**İsmayıl**

# Soçidə tərəflər sülhə daha çox yaxınlaşacaq

## Ekspertlər hesab edir ki, Rusiyanın regionda sülhün əldə olunması ilə bağlı imkanları daha genişdir



**Ermənistan Baş naziri Nikol Paşinyan Soçidə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putinlə oktyabrın 31-də keçirilməsi planlaşdırılan üçtərəfli görüşə gedəcəyini təsdiqləyib. Baş nazir bu barədə hökumət saatında çıxışı zamanı deyib. Paşinyan Putinin Soçidə üçtərəfli görüş təklifini qəbul etdiyini söyləyib.**

O, ötən dövr ərzində yığılan bir çox məsələlərin həll edilməli olduğunu qeyd edib. Kreml də Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşünün baş tutacağına inanır. Putinin mətbuat katibi Dmitri Peskov bildirib ki, belə bir üçtərəfli görüş hazırlanır: ”Görüşün baş tutacağına ümid edirik. Yeri və zamanı vaxtında müəyyənləşdiriləcəyik”. Xatırladaq ki, Rusiya dövlət başçısı Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanı Rusiyaya üçtərəfli görüşə dəvət edib. Azərbaycan və Ermənistan rəhbərləri arasında sonuncu görüş oktyabrın 6-da Praqada Fransa dövlət başçısı Emmanuel Makronun və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə keçirilib.

**Görüş ehtimalını ”Şərq”ə dəyərləndirən Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlı deyib ki, Rusiyanın regionda sülhün əldə olunması ilə bağlı imkanları daha genişdir.** Ekspert vurğulayıb ki, Rusiya Bakı və İrəvanla əlaqələri olan, Ermənistan üzərində xüsusi təsirə malik, ən əsası isə problemi yaradan və davam etməsinə imkan verən ölkələrdən biridir: ”Bu məqamlar önəmlidir. Bu gün ortada olan problemin yaranmasının təşəbbüskarları sadəcə Rusiya və Ermənistan deyil.

“Əks halda rəsmi Bakı əvvəlki təcrübəyə əsaslanaraq, bir müddət sonra nəticəsiz görüşlərdən imtina edəcək”

Başqa ölkələrin də işğal prosesində və münaqişənin uzun müddət həll olunmamış qalmasında məsuliyyəti və günahı olub. Ancaq Rusiya ilə digər ölkələrin fərqi ondadır ki, Moskva problemi yaradan tərəflə olmaqla yanaşı, həm də həllinə töhfə verəcək imkanlara da sahibdir. Təbii ki, əgər Kreml bunu istəsə. Ancaq hazırda Rusiyada siyasi və ictimai sferalarda, mediada, hətta bəzi hallarda dövlət səviyyəsində Azərbaycana qarşı təxribatçı addımlar, sülhə mane olan davranışlar bizdə şübhələri artırır. Sual yaranır ki, indiki məqamda Rusiyanın vasitəçiliyi ilə keçirilən görüşlər həqiqətən problemin həllinə yönəlib, yoxsa məqsəd prosesləri nəzarət altında saxlamaqdır? Rusiyada baş tutan görüşlər nəyə xidmət edir? Bu sualın cavabı təkcə Azərbaycan deyil, regionda sülhün tərəfdarı olan digər dövlətlər üçün də maraqlıdır. Düzdür, son dövrlərdə Rusiyanın atdığı müəyyən addımlar Azərbaycanda ”Moskvanın öz mövqeyində qismən dəyişiklik” kimi dəyərləndirilirdi. Amma gördük ki, o addımlar ardıcıl xarakter daşımır”.

*Politoloq vurğulayıb ki, mövcud vəziyyət çox həssasdır. Ona görə də biz gözləntilərə, yaqinlərə hesablanmış görüşlər deyil, konkret nəticələrə əsaslanmış təmaslar istəyirik:* ”Rusiya doğrudan da xoşniyyətlidirsə, rus efirlərində mühaşidə olunanlar sadəcə təsadüfdürsə və dövlətin xətti sayılmırsa, o zaman Kremlin hərəkətləri başqa cür olmalıdır. Məsələn, Moskva Xankəndi və ətraf bölgədə hələ də qalmaqda olan qanunsuz silahlı qruplaşmaların ərazilərimizi tərk etməsi, o cümlədən Zəngəzur dəhlizi ilə bağlı ciddi addımlar atmalıdır. Əks halda rəsmi Bakı əvvəlki təcrübəyə əsaslanaraq, bir müddət sonra nəticəsiz görüşlərdən imtina edəcək. Hətta dəvət birbaşa Rusiya rəhbərindən gəlsə cavabımız ”yox” olacaq. 31 oktyabr görüşü barədə bunu söyləmək hələ tezdir. Söhbət qarşıdakı nəticəsiz görüş təkliflərindən gedir”.

*A.Aslanlı qeyd edib ki, əvvəlki dövrlərdə Qərbin məsələyə yanaşmasında sülhə istiqamətlənməmiş, çox vaxt Rusiyanın da siyasəti ilə üst-üstə düşən yanaşmalar, təxribat yönlü bəyanatlar görürdük:* ”İndi sanki Qərbdə bir qədər konstruktiv mövqe nümayiş olunmaqdadır. Əlbəttə, Qərb dedikdə bütün qərb ölkələrini nəzərdə tutmuram, daha çox Avropa İttifaqının yanaşmasını deyirəm. Aİ Rusiyanın qıcıqlanmasına baxmayaraq, qalıcı sülhə xidmət edəcək müəyyən addımlar atır. Şübhəsiz, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı önəmli rol da Aİ-nin yanaşmasına təsir göstərən amillərdəndir”.

**İsmayıl Qocayev**



# Bir azdan “Akıncı”lar da gələcək

## Azərbaycan öz arsenalını müttəfiq Türkiyənin silah sistemləri ilə gücləndirir

**Türkiyədə işgüzar səfərdə olan Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov oktyabrın 25-də Türkiyənin Milli müdafiə naziri cənab Hulusi Akarla görüşüb.**

Bildirilib ki, görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi, eləcə də regional təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

**Azərbaycanla Türkiyə arasındakı hərbi-texniki əməkdaşlığın daim artan dinamika ilə inkişaf etdiyini deyən hərbi ekspert Ədalət Verdiyev ”Şərq”ə bildirib ki, Azərbaycan Türkiyənin ”Barkan” Pilotsuz Uçuş Aparatı və ”Raketsan” şirkətinin ”Çakır” raketləri ilə yaxından maraqlanır:** ”Nəzərə alsaq ki, Bakı Ankaradan uzun müddət havada qala bilən ”Akıncı” PUA-larını almaq niyyətindədir. Bu zaman sözügedən PUA-ları istifadə edəcəyi, uzun mənzilli raketləri də almağı məqsədəuyğun addımdır. İstənilən halda Türkiyədən əldə ediləcək silah sistemləri, Azərbaycan Ordusunun potensialını artırmağa daha da imkan verəcək. Bu isə Ermənistan üzərindəki hərbi balansı daha yüksək saxlamağa şərait yaradacaq.

Azərbaycanla Ermənistan arasında toqquşmaları isə kimsə istisna edə bilməz. Çünki düşmənin son fəaliyyətləri və Kəlbəcər, Tovuz istiqamətində atəşkəsi intensiv şəkildə pozması ondan xəbər verir ki, İrəvan hələ də Azərbaycan ərazilərinə iddialarını davam etdirir.

Digər tərəfdən isə ermənilərin Laçın dəhlizi vasitəsilə Qarabağa silah-sursat daşıması Bakının daha ciddi addımlar atmasını tələb edir. Bu baxımdan da Azərbaycanın öz arsenalını müttəfiq Türkiyənin silah sistemləri ilə komplektləşdirməsi, tamamilə məqsədəuyğundur”.

**Nihat Müzəffər**

İsmayıl Qocayev

# Tapşırıq Kremlindir

## Rusiyanın televiziya kanallarında, çap və onlayn mediada anti-Azərbaycan qüvvələrə həvəslə yer verilir

**”Rusiya həmişə Azərbaycanla bağlı çirkin informasiya təbliğatını rahat şəkildə, gen-bol tirajlayıb. Həm də bunu dövlət mediası vasitəsi ilə həyata keçirir”. Bu sözləri ”Şərq”ə Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət deyib. Tanınmış jurnalist bildirib ki, televiziya kanallarında, çap və onlayn mediada anti-Azərbaycan qüvvələrə həvəslə yer verilir:**

”Əlbəttə, bunların heç biri təsadüf deyil. Rusiya dövləti icazə verməzsə, göstəriş və tapşırıq olmazsa, belə verilişlər efirə getməz. Bu davranışlar birbaşa Kremldən qaynaqlanır. Yəni Rusiya dövlətinin rəsmi siyasətidir. Çox vaxt bizdə yanlış olaraq düşünürlər ki, qarayaxma təbliğatının arxasında erməni diasporası dayanır. Bu iddia inkişaf etmiş, demokratik Qərb dövlətlərində keçərli ola bilər. Həmin ölkələrdə istənilən maraq qrupları özlərinə uyğun təbliğat qururlar. Amma Rusiyada vəziyyət başqadır. Rusiya avtoritar idarəetmə üsuluna sahib bir dövlətdir. Orada ən yuxarıda duran şəxsin xəbəri və izni olmadan təxribatçı davranışların sərgilənməsi qeyri-mümkündür. Rusiyada baş verənlərdə erməni izi var, lakin erməni izi Rusiyanın özünü arxa plana atması, gizlənməsi üçün vasitədir. Kreml rəhbərinin birbaşa icazəsi olmadan strateji tərəfdaş sayılan Azərbaycana qarşı hörmətsizlik mümkün deyil.

“Rusiya avtoritar idarəetmə üsuluna sahib bir dövlətdir. Orada ən yuxarıda duran şəxsin xəbəri və izni olmadan təxribatçı davranışların sərgilənməsi qeyri-mümkündür”



Rusiya və Azərbaycan arasında bir çox ikitərəfli sənədlər imzalanıb. Həmin sənədlərə əsasən, iki dövlət qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşmalıdır. Azərbaycan bu sənədlərə sadiqdir. Son belə sənədlərdən biri də informasiya təhlükəsizliyi ilə bağlı idi. Rəsmi Bakı bütün hallarda ortaq sənədlərin ruhuna uyğun davranır. Əfsuslar olsun ki, Rusiya eyni davranışı sərgiləmir və çirkin təbliğata yol verir”.

**A.Həsrət vurğulayıb ki, Azərbaycan belə məqamlarda Rusiya ilə mövqeləri daha da dəqiqləşdirməlidir:** ”Rusiyanın Azərbaycanda bu və ya digər formada təsir imkanlarını qoruyub saxlayan bağları kəsməliyik. Rus məktəbləri üçün yaradılmış şəraitə, rus dilinin gen-bol istifadəsinə yenidən baxılmalıdır. Çünki Rusiya bizim bu münasibətimizə layiq deyil, tərəfdaşlığa sadiq deyil. Moskva imza atdığı sənədlərə sədaqət nümayiş etdirmir. Rəsmi Bakı öz siyasətini buna uyğun qurmalıdır. Eyni zamanda xüsusi vurğulamaq istəyirəm ki, kabel yayımçılarının paketlərindən rus kanalları bütünlüklə çıxarılmalıdır. Təsəvvür edin, həmin kanallarda bizə qarşı çirkin təbliğat aparılır, ölkəmizdəki kabel yayımçıları o televiziya kanallarını Azərbaycan izləyicisinə pulla satırlar. Rusiyanın çirkin təbliğatı evlərimizin içinə soxulur. Buna yol verilməməlidir. Niyə həmin paketlərdə Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin kanalları yoxdur? Paketlərə bunları əlavə etmək lazımdır. Rusiya elə davranırsa, biz də belə davranmalıyıq”.

# Azərbaycan və Gürcüstan güclərini birləşdirir

## Cənubi Qafqaz regionunda sülhün və əməkdaşlığın təmin edilməsi üçün olduqca əlverişli şərait yaranıb



**Azərbaycan-Gürcüstan münasibətləri "soyuq müharibə"dən sonrakı mərhələdə davam edən ən uğurlu əməkdaşlıq modelidir. Bu qədər gərgin regionda bu qədər uğurlu və çoxşaxəli əməkdaşlığın, bu qədər qlobal əhəmiyyətli regional layihələrin birlikdə reallaşdırılmasının başqa nümunəsi yoxdur. Azərbaycanın 30 ildə gəldiyi uğurlu nöqtədə balanslaşdırılmış siyasətin və Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli formatının böyük rolu var.**

Bu format gələcəkdəki istənilən əməkdaşlıq formatlarının özülü olacaq. Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycan dövlət başçısı İlham Əliyevlə birgə mətbuat konfransında iki dəfə ikitərəfli münasibətləri "strateji tərəfdaşlıq" kimi xarakterizə etdi. Prezident Gürcüstandakı görüşdə ikitərəfli münasibətlərin strateji xarakterini xüsusi vurğuladı. Hətta strateji tərəfdaşlıq əlaqələrinin müttəfiqlik səviyyəsinə qalxdığını qeyd etdi. Cənubi Qafqazda qalıcı sülh bölgə dövlətlərinin öz aralarında yaradacaqları sülh olacaq. Bu sülh bütün dövlətlərin ərazi bütövlüyünə, suverenliyinə, əməkdaşlıq potensialının birgə reallaşdırılmasına, bütün kommunikasiya xətlərinin açılmasına və birgə istifadəsinə əsaslanmalıdır. Bu çərçivədə birgə layihələr reallaşdırıla bilər. Azərbaycanın bu istiqamətdəki təşəbbüslərinin Gürcüstan tərəfindən açıq şəkildə dəstəklənməsi müsbət haldır.

Gürcü ekspert Levan Kipiani deyib ki, Cənubi Qafqaz regionu böyük dəyişikliklər astanasındadır - həm Gürcüstan, həm də Azərbaycan bunda böyük rol oynayır. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Tbilisiyə səfərindən sonra Türkiyədən də aktivlik gözlənilən olacaq: "Proseslər və hadisələr çox sürətlə dəyişir və biz regionda əhəmiyyətli, dərin dəyişikliklər gözləməliyik. Tbilisi, Bakı və Ankaranın bu illər ərzində yaratdığı üçbucaq çox güman ki, yeni məna kəsb edəcək və Ermənistanı yeni seçim qarşısında qoyacaq".

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, son 19 ildə Prezident İlham Əliyev qonşu Gürcüstana dəfələrlə səfər edib. Daha doğrusu, Gürcüstan Azərbaycan liderinin ən çox səfər etdiyi ölkələr sırasında gəlir. Oktyabrın 24-də ölkə başçısı İlham Əliyevin Gürcüstana baş tutan işgüzar səfəri qonşu ölkəyə sayca 10-cu səferidir:** "Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti ilə həyata keçirilən səfər Azərbaycan-Gürcüstan münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. Çünki bu səfər zamanı iki ölkənin dostluq və müttəfiqlik münasibətlərinin yeni hədəfləri müəyyən edildi. Azərbaycan Prezidentinin Gürcüstanla münasibətlərə belə xüsusi önəm verməsi və bu ölkəyə dəfələrlə səfər etməsi nədən irəli gəlir? Gürcüstan Azərbaycanın Cənubi Qafqazda ən möhkəm siyasi, iqtisadi, mədəni əlaqələr qurduğu ölkə kimi təbii, tarixi müttəfiqimiz sayılır. Hər iki dövlət və xalqlarımız xüsusən də son yüzilliklə daim səmimi dostluq və qardaşlıq münasibətlərini qoruyub saxlaya bilib. Biz əvvəllər yaxın qonşuluq və dostluq münasibətlərinə malik olan ölkələr hesab olunurduqsa, hazırda iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlib. Və bu nəticəyə nail olunmasında Prezident İlham Əliyevin xüsusi rolu var".

*Partiya rəhbəri hesab edir ki, Gürcüstan bizə təkcə tranzit ölkə kimi logistika baxımından lazım deyil. Biz Gürcüstana sadəcə enerji daşıyıcılarımızın nəqli üçün ötürücü-tranzit ölkə kimi baxmırıq. Rəsmi Bakı bu qonşu ölkə ilə bütün sahələrdə sıx əməkdaşlığın tərəfdarıdır:* "Prezident İlham Əliyevin Gürcüstana son səfəri ilə Azərbaycan-Gürcüstan münasibətlərinin prinsipcə yeni mərhələyə keçməsinə start verildi. Bu da onunla bağlıdır ki, avantürist Ermənistan rəhbərliyindən fərqli olaraq Azərbaycan və Gürcüstan liderləri Cənubi Qafqazda sülh və sabitliyin gələcəyinin ilk növbədə məhz region ölkələri arasında daha genişmiqyaslı əməkdaşlıqdan asılı olduğunu çox gözəl başa düşürlər. Azərbaycan-Gürcüstan münasibətlərinin yeni mərhələyə keçməsinin bir digər səbəbi isə dünyada baş verən son qlobal dəyişikliklərlə bağlıdır. Belə ki, getgedə daha da dramatik xarakter almaqda olan Rusiya-Ukrayna müharibəsi nəticəsində Rusiyanın indiyə qədər görünməmiş miqyasda total sanksiyalara məruz qalması bu ölkənin beynəlxalq yükdaşımalar sistemindən sıxışdırılıb çıxarılmasına və geosiyasi, geoiqtisadi proseslərə təsir gücünün azalmasına gətirib çıxarıb. Bu da Bakı ilə Tbilisiyə imkan verir ki, Asiyadan Avropaya yükdaşımalarda təşəbbüsü ələ alsınlar və Orta Dəhlizin aparıcı ölkələri rolunda çıxış etsinlər. Çin-Orta Asiya-Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Qara dəniz-Türkiyə-Avropa beynəlxalq nəqliyyat dəhlizi ilə yükdaşımaların həcminin gündən-günə genişlənməsi də onu göstərir ki, Bakı və Tbilisi qlobal proseslərin nəbzini düzgün tutmağı bacarıblar. Bu gün Asiya və Avropanın onlarla ölkəsinin istər qaz təchizatı, istərsə də digər iqtisadi-ticari ilişgiləri ilk növbədə məhz Azərbaycan-Gürcüstan münasibətlərinin səviyyəsindən və xarakterindən asılıdır.

Azərbaycanla Gürcüstan arasında qarşılıqlı əməkdaşlıq münasibətləri regionun digər ölkəsi olan Ermənistan üçün də nümunəvi regional əməkdaşlıq modeli rolunu oynaya bilər. Lakin əfsuslar olsun ki, Cənubi Qafqazda yeganə destruktiv ölkə kimi tanınan Ermənistanın yürütdüyü qeyri-sağlam siyasət bu ölkəni Gürcüstan və Azərbaycanın aparıcı rol oynadığı bütün beynəlxalq layihələrdən kənarda saxlamağa səbəb olur. Ancaq buna baxmayaraq Bakı və Tbilisi bu məsələdə də ortaq mövqedən çıxış edir və Ermənistan rəhbərliyini bu cür özünütəcrid siyasətindən əl çəkməyə, regionda cərəyan edən inteqrasiya proseslərinə qoşulmağa səy göstərir".

**Ə.Hüseynov diqqətə çatdırıb ki, Azərbaycan tərəfi Gürcüstanla səylərini birləşdirərək növbəti dəfə Ermənistana sülh və əməkdaşlıq əlini uzadır:** "Burada bir önəmli məqam ondan ibarətdir ki, beynəlxalq birlik də Azərbaycan Prezidentinin bu mövqeyinə pozitiv münasibət sərgilədi. ABŞ-ın Gürcüstandakı səfiri Kelli Deqan İlham Əliyevin həmin bəyanatını şərh edərkən söylədi ki, "Azərbaycan Prezidentinin bu bəyanatı ümidvericidir. Azərbaycan, Gürcüstan və Ermənistan arasında əməkdaşlığın və dialoqun qurula biləcəyi çoxlu müxtəlif sahələr var. Enerji, iqtisadiyyat, nəqliyyat və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq qurula bilər. İlham Əliyevin bəyanatı bu baxımdan çox müsbət və ümidverici idi".

Göründüyü kimi hazırda Cənubi Qafqaz regionunda sülhün və əməkdaşlığın təmin edilməsi üçün olduqca əlverişli şərait yaranıb. Azərbaycan və Gürcüstan bunun üçün gərəkən bütün addımları atıblar. İndi top Ermənistan tərəfdədir. Özünü Qərbyönümlü kimi göstərməyə çalışan, lakin əsl həqiqətdə isə davamlı olaraq pozucu mövqe nümayiş etdirən və regionda sülhə təhdid yaradan rəsmi İrəvan artıq ənənəvi davranışlarına son qoymalı, konstruktiv mövqe nümayiş etdirməlidir. Ermənilər azərbaycanlılar və gürcülərin hərəkətə gətirdiyi sülh və əməkdaşlıq qatarına qoşulmaq şansını düzgün dəyərləndirməlidir".

**İsmayıl Qocayev**

# Laçın dəhlizi ilə silah-sursat daşınır

## Ermənistan razılaşmaya Rusiyanın təlimatı ilə əməl etmir

**Qarabağda genişmiqyaslı bərpa-quruculuq işlərinə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına mane olan əsas təhdidlərdən biri ərazilərimzin Ermənistan tərəfindən məqsədyönlü şəkildə minalanması və davam edən mina basdırılması hallarıdır.**

Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata zidd olaraq, Azərbaycan ərazilərində külli miqdarda piyada əleyhinə minalar yerləşdirməkdə davam edir. Bu təxribat yalnız keçmiş təmas xətti boyunca deyil, digər ərazilərdə də insanların minaya düşməsi hallarının artmasına səbəb olur. Ümumilikdə, son 30 il ərzində Azərbaycanda mina qurbanlarının sayı 3 min 345 nəfər təşkil edib. 2020-ci il Vətən müharibəsinin başa çatmasından etibarən bugünədək 266 vətəndaşımız mina partlayışından zərər çəkib, onlardan 3 nəfər jurnalist daxil 45 nəfər həlak olub. Həlak olanların 35 nəfəri mülki şəxsdir. Ermənilərin Laçını tərk etməsindən sonra yalnız rayon ərazisində 1400-dən artıq 2021-ci il Ermənistan istehsalı piyada əleyhinə minalar Ermənistan tərəfindən sülh və təhlükəsizliyə nə dərəcədə ciddi zərbə vurulmasının göstəricisidir. Ötən il istehsal olunmuş minaların Azərbaycan ərazisinə ötürülməsi bir daha nümayiş etdirir ki, üçtərəfli bəyanatın 6-cı bəndinə uyğun olaraq Laçın dəhlizindən qeyri-qanuni hərbi fəaliyyətlər üçün sui-istifadə halları davam edir. Rəsmi İrəvan bir tərəfdən sülh müqaviləsindən danışır, digər tərəfdən isə təxribatçı addımlar atır. Ən əsası isə odur ki, minalar Ermənistandan rus sülhməramlılarının himayəsində Azərbaycan ərazisinə keçirilir.



**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə vurğulayıb ki, Ermənistan 10 noyabr və 11 yanvar razılaşmalarına Rusiyanın təlimatı ilə əməl etmir. Partiya rəsmisi bildirib ki, İrəvan Azərbaycana qarşı revanşist mövqeyi davam etdirir və ilkin şərt olaraq Qarabağda ermənilərin "statusu"nu irəli sürür:** "Həmçinin, Azərbaycan tərəfindən ikitərəfli danışıqların əleyhinə olaraq sərhədlərin delimitasiyası və demarkasiyasına atəşlə cavab verir. Bu gün silahlı ermənilərə "Laçın" dəhlizi vasitəsilə silah-sursat daşınır. Hətta digər iri çaplı silahların daşınması həyata keçirilir. Halbuki, 10 noyabr Birgə Bəyanamənin 4-cü bəndinə əsasən, silahlı erməni birləşmələri çıxarılmalıdır. Amma Rusiya buna getmir və Qarabağda böhranı davam etdirməkdə maraqlıdır. Bundan başqa Zəngəzur dəhlizi ilə bağlı problem var. Bu dəhlizin reallaşması bir neçə il çəkə bilər. Burada irimiqyaslı bir layihənin gerçəkləşməsindən söhbət gedir. Dağ relyefində dar bir ərazidə həm avtomobil yolunun, həm də dəmir yolunun çəkilişi sadə məsələ deyil. Zəngəzur dəhlizi Azərbaycan üçün "olmazsa olmaz" bir hədəfdir. Bu hədəfə əngəl yaratmaq birmənalı şəkildə Laçın dəhlizinin bağlanması ilə nəticələnəcək".

**İsmayıl Qocayev**

# Anar növbəti dəfə sədr seçilib

## Azərbaycan Yazıçılar Birliyinin qurultayı keçirilib

**Dünən Azərbaycan Yazıçılar Birliyinin (AYB) XIII qurultayı keçirilib. Əvvəlcə qurultay iştirakçıları Fəxri və Şəhidlər xiyabanlarını ziyarət ediblər. Sonra qurultay Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında öz işinə başlayıb.**

Azərbaycan Yazıçılar Birliyinin dəvətilə Qurultayda Türkiyə, Rusiya, Litva, İsrail, Pakistan, Gürcüstan, Almaniya, İraq, Belarus və İrandan iyirmidən çox qonaq qatılıb.

*Azərbaycan Yazıçılar Birliyinin Qurultay iştirakçıları Prezident İlham Əliyevə müraciət ediblər.*

Müraciət məktubunu şair, dramaturq İlqar Fəhmi oxuyub. Məktubda dövlət siyasətinin ədəbi mühit tərəfindən dəstəkləndiyi qeyd edilib: ”Möhtəşəm qələbə və tarixi uğura görə, eyni zamanda, Azərbaycan ədəbiyyatına göstərdiyiniz qayğıya görə sizə minnətdarıq.

Sizin daxili və xarici siyasətinizi ədəbiyyat xadimləri olaraq ürəkdən dəstəkləyir və sizə fəaliyyət yolunuzda uğurlar arzu edirik”.

Qurultaya həmçinin qazax şair, yazıçısı Oljas Süleymenov da təbrik məktubu göndərib. Məktubu Xalq yazıçısı Anar oxuyub.

**Xalq şairi Sabir Rüstəmxanlı bildirib ki, ideoloji işlərə başçılıq edənlərin sovet təfəkküründən qopa bilməməsi bəzən güneylə bağlı siyasətin düzgün qurulmasına mane olur.** Xalq şairi Güneydən gələn gənclərimizi dövlət hesabına oxudulmamasına diqqət çəkib: ”Rəsmi orqanlarımız illər boyu Güney Azərbaycan üçün kadr hazırlığını əldən verib. Amma müxtəlif yerlərdən gələnlər oxuyublar. Çünki ideoloji işimizə başçılıq edənlərin sovet təfəkküründən qopa bilməməsi bəzən güneylə bağlı siyasətimizin düzgün qurulmasına mane olub”.

**Sabir Rüstəmxanlı mədəni problemlərimizin olduğunu qeyd edib:** ”Əslində, qeyd ediləsi problem çoxdur. Məsələn, kəndlərdə mədəniyyət ocaqları, kitabxanalar yarıbayarı ixtisar edilib. Televiziyalarda kitab təbliğatı unudulub. Kəndlərin əksəriyyətində əhalinin bir yerə yığışması ancaq məscidlərdə olur, başqa yer yoxdur”. Xalq şairi sözügedən məsələni ciddi problem adlandırıb. ”Bu, son dərəcə ciddi bir problemdir. Oxucularımız çox sürətlə azalır, hətta əlimizdən alınır. İngilis və rusdilli məktəblərin içində bütün dərslər həmin dillərdə keçirilir. Sual doğurur ki, həmin gənclərlə bizim yazıçılarımızın əlaqəsi necə qurulacaq? O gənclərimiz ədəbiyyatımızda xəbər tuta biləcəkmi? Yox. Hesab edirəm ki, Azərbaycanda çağdaş tələblərə cavab verən yeni muzey kompleksi tikilməlidir. Əlyazmalar İnstitutu daha etibarlı şəraitdə qorunmalıdır. Dünya muzeylərində Azərbaycan klassik ədəbiyyatının inciləri çoxdur və onlar nə qədər ki, məhv olunmayıb, Azərbaycana qaytarılmalıdır”, - Xalq şairi bildirib.





Yazıçılar Birliyinin XIII qurultayında hər birində 5 üzv olmaqla 4 komissiya heyəti təsdiq olunub.

**Komissiyanın sədr və üzvləri aşağıdakılardır:**

Qurultayın katibliyinin sədri Adil Cəmil, üzvlər isə Arifə Əliyeva, Ramiz Qusarçaylı, Qafar Cəfərli, Taleh Mənsur;

Mandat komissiyasının sədri Əkbər Qoşalı, üzvlər isə Gülnarə Əmələddin, Nazim Əhmədli, Akif Əhmədgil, Şahin Musaoğlu;

Mətbuat xidmətinin rəhbəri Elçin Şıxlı, üzvlər isə Xəyal Rza, Alina Talıbova, Şahanə Müşfiq, Ulucay Akif;

Seçki komissiyasının sədri Səyyad Aran, üzvlər isə Elxan Elatlı, Saday Budaqlı, Orxan Fikrətoğlu və Cavid Zeynallı seçilib.

*Qeyd edək ki, qurultayda Baş nazirin müavini Əli Əhmədov, Mədəniyyət naziri Anar Kərimovla yanaşı, ölkənin ədəbiyyat xadimləri, yazıçı, şairlər iştirak edib.*

**Çıxış edən Xalq yazıçısı Anar qurultayın 2019-cu ildən bu yana gecikməsinə diqqət çəkib:** ”Mən qurultayın gecikməsi məsələsinə, əslində, bir qədər sevinclə yanaşıram. Çünki bu gün bu qurultay qalib ölkənin nümayəndələri, yazıçı və şairləri kimi keçiririk. Biz bu uğura görə, cənab prezident, Cənab Ali Baş Komandan İlham Əliyevə və Ordumuza minnətdarıq”.

*Anar Türkiyənin keçmiş mədəniyyət naziri Namık Kamal Zeybekin Yazıçılar Birliyinin Fəxri üzvü seçilməsini təklif edib.*

**Filologiya elmləri doktoru, professoru Nizami Cəfərov İsa Muğannanın ev muzeyinin yaradılması təşəbbüsünü edib:** ”İsa Muğannanın ev muzeyinin rəsmi statusu yoxdur. Hesab edirəm ki, dünya şöhrətli yazıçımızın yaşadığı həmin evə rəsmi ev muzeyi statusu verilməlidir. Bu, vacibdir”.

**AYB katibi, şair Səlim Babullaoğlu bədii tərcümə mərkəzinə göstərilən qayğısızlıqdan bəhs edib:** ”Bədii tərcümə mərkəzi işləməlidir, bunu hər hansısa bir qurumla səhv salmaq olmaz. Həmin qurumu büdcədən məhrum etmək olmaz, qəti olmaz. Mədəniyyəti mədəniyyət edən onun davamlılığıdır. O baxımdan, biz də qoyduğumuz ənənələri davam etdirməliyik”.

”Azərbaycan” jurnalının baş redaktoru İntiqam Qasımzadə mətbuat yayımı ilə bağlı diqqət çəkən problemlərə toxunub: ”Bakı şəhərinin hər tinində qəzet və jurnal köşkləri var. Amma bu köşklərdə nə desən, satılır. Bir roman, bir hekayə, bir şeir yazıldığı halda oxuculara çatdırılmırsa, onun heç bir əhəmiyyəti yoxdur. Mətbuat yayımı yazıçı ilə oxucu arasında əlaqə deməkdir. Bu əlaqə olmadan yaradılan ədəbiyyat əhəmiyyətini itirir”.

**Jurnal redaktoru ölkədəki kitabxanaların sayının artırılması məsələsini də vurğulayıb:** ”Ölkədaxili kitabxanaların sayı artırılmalıdır. Bu məsələlərə diqqət yetirilməlidir. Təhsil ocaqlarında da vəziyyət acınacaqlıdır. Nə jurnal alan var, nə qəzet. Ədəbiyyat uşaqlara, xüsusən də gənclərə çatdırılmalıdır. Bu məsələ ilə ilk növbəti aidiyyəti idarələr məşğul olmalıdır”.

Gənc şair Ramil Əhməd çıxışında Yazıçılar Birliyinə üzv seçimində yeni meyarların təyin olunmasını təklif edib.

**Xalq şairi Vahid Əziz yazıçı və şairlərlə bağlı verilən sərəncamların icrasında AYB-nin də səlahiyyətinin vacibliyini vurğulayıb:** ”Yazıçı və şairlərlə bağlı verilən sərəncamlarda Yazıçılar Birliyinin də səlahiyyətlərinin olması vacibdir. Yazıçılar Birliyi, bir növ, yazıçı və şairlərin nazirliyidir. Hesab edirəm ki, yazıçı və şairlərlə bağlı bu cür sərəncamlarda iş icrası üçün birliyə də səlahiyyət verilməlidir”.

Çıxışlar bitdikdən sonra açıq səsvermə keçirilib və Xalq yazıçısı Anar növbəti dəfə AYB-nin sədri vəzifəsinə seçilib. (apa)

Seçki üçün şairlər Emil Rasimoğlu və Fuad Cəfərlinin namizədliyi səsə qoyulmayıb. Buna səbəb qurultay iştirakçılarının Anarı dəstəkləməsi olub.

*Qeyd edək ki, AYB-nin sonuncu qurultayı 2014-cü ildə keçirilib və Xalq yazıçısı Anar sədr seçilib. O, 1987-ci ildən Birliyin sədridir.*

# Alov genişlənir

## ABŞ İrandakı etirazlardan məmnundur

**İran genişmiqyaslı mitinqlərin 44-cü gününü yaşayır. Hakimiyyət daxilindəki qovğalar, üstəgəl, İran İslam Respublikasının xarici agentura şəbəkəsinin meydançasına çevrilməsi aksiyaların xarakterini mürəkkəbləşdirir. Ən son məlumatlara əsasən, İranın 11 vilayətinin ən azı 13 şəhərində aksiyalar davam edir və tələbələr mitinqlərin hərəkətverici qüvvəsinə çevrilir.**

İranın yürütdüyü xarici siyasət kursu, xüsusilə son zamanlar Rusiyanın Ukraynadakı müharibədə qələbə qazanmasını təmin etmək üçün ona kamikadze dronlar verməsinin siyasi nəticələri ölkə daxilinə mənfi sirayət edir. İslam Respublikasının Ukraynadakı müharibədən dolayı iştirakı elə Ukrayna müharibəsinin dolayı tərəfi olan Qərbi narahatlıqlara qərq edir. Buna görə də Tehrana qarşı qəzəbli siyasi kurs yenidən canlanır. Bu kursun ardınca İsrail hədsiz maraqla gedir və Tehranı ”çökdürmək” üçün planlarını Qərblə koordinasiya edir.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə deyib ki, İsrail oktyabrın 25-də Zahedanda iki SEPAH zabitinin öldürülməsi ilə bağlı kəşfiyyat müharibəsində rəqibindən bir neçə addım irəlidə dayandığını yenidən göstərdi. Hərçənd ki, Təl-Əviv heç zaman bu suiqəsdi öz boynuna almaz. Analitikə görə, ABŞ-a gəlincə, özünün İranla bağlı kursunu Qərbin və İsrailin birləşmiş gücü sayəsində inkişaf etdirməyi düşünür:** ”Lakin o da bəllidir ki, Vaşinqtonun Tehranla bağlı prioritetləri heç də həmişə tərəfdaşlarının maraqları ilə üst-üstə düşmür. İran siyasətinin yayıldığı coğrafiya, onun Yaxın Şərqdəki iştirakı, nüvə silahı istehsal edə biləcəyi ilə bağlı hədələri, zəngin enerji resursları və sair amillər böyük güclərin məntiqini istər-istəməz fərqli şəkildə inkişaf etdirir. İrandakı etirazların izi ilə Vaşinqton-Tehran münasibətlərinin cari situasiyasının təsvirini belə verə bilərik. ABŞ İrandakı etirazlardan məmnundur, üzdə insan hüquqlarını qabartsa da, əslində İran qüvvələrinin etirazçıları öldürməsindən o qədər də narahat deyil. Amerika üçün böyük




“Etirazlarda etnik kartların necə oynanılacağı da dərin suallar yaradır”

strateji marağın təmin edilməsi əsas olduğundan o, etirazları nüvə danışıqlarında İranın iddialarının kiçilməsi vasitəsinə çevirmək məharətinə malikdir. Vaşinqton buna görə İrana qarşı maksimum təzyiq kampaniyasını davam etdirir və indiki məqamda Tehrana möhlət vermək niyyətində deyil. İrandakı etirazlarda etnik kartların necə oynanılacağı da dərin suallar yaradır. Yəni bu məsələdə hansı ölkənin hansı populyasiyaya sərmayə yatıracağı maraq doğurur. Təxmin etmək çətin deyil ki, ABŞ və Britaniya daha çox kürdlərə, Səudiyyə Ərəbistanı isə ərəblərə kapital yatırmaq planlarını yuxarı səviyyəyə qaldıracaq. Azərbaycanla Türkiyənin bu hərarətli fonda azərbaycanlı amilinə vurğular etməsi, həm də türkmənlərə olan diqqəti ortaya qoyur. Bütün bunlar zehinləri itiləməyə əsaslar verir”.

**A.Kərimovun fikrincə, bütün gücləri, hətta Rusiyanı da bir etnik kart birləşdirir ki, bu da azərbaycanlı amilidir:** ”İrandakı türk etnosu bir növ qlobal maraqların Tehrana yönələn niyyətlərində birləşdirici stimul yaradır. Hazırda isə İran üçün ən təhlükəli mənbə kürdlərdir. Şübhəsiz ki, kürd faktoru həm də xarici hücrələr kimi inkişaf etdirilir, buna görədir ki, SEPAH İraqdakı PKK mövqelərinə intensiv zərbələr endirir. İrandakı etirazlar hələlik rejimi dəyişmək səviyyəsinə gəlib çatmayıb. Mümkündür ki, bu, heç baş tutmasın! İran Qərblə sövdələşməyə gedərək ABŞ-ın daxildəki etirazlara marağını müvəqqəti də olsa, azalda bilər. Amma məsələ təkcə ABŞ ilə bitmir. Digər oyunçuların da marağı əsas olduğundan onlar İranla Ağ Ev arasında nəticə əsaslı konstruktiv yekunun nail olunmasına qarşı çıxa bilərlər”.

**İsmayıl Qocayev**

ŞƏRQ Müstəqil ictimai-siyasi qəzet 27 oktyabr 2022-ci il (cümə axşamı) Zaman



# Britaniya və İtaliyada hökumət dəyişdi

## Yeni baş nazirlərin ölkələrinin Azərbaycanla bağlı mövqeyində ciddi dəyişiklik baş verməyəcək

**Hind əsilli Rişi Sunak Böyük Britaniya, Corciya Meloni isə İtaliyanın baş naziri seçilib. C.Meloni İtaliyanın ilk qadın, R.Sunak isə Böyük Britaniyanın ilk hind əsilli baş naziri olaraq tarixə düşdü. Hər iki ölkədəki yeni baş nazir təyinatları Azərbaycanda da böyük maraqla qarşılanıb.**

Çünki rəsmi London və Roma Bakının Qərbdəki ən vacib tərəfdaşlarıdır. Hər iki ölkə ilə iqtisadi, siyasi və diplomatik sahədə yüksək əlaqələr mövcuddur. 44 günlük Vətən müharibəsində həm Böyük Britaniya, həm də İtaliya Azərbaycanın haqq işinə diplomatik dəstək nümayiş etdirən nadir Avropa ölkələrindən idi. Digər tərəfdən, başda İtaliya olmaqla, hər iki ölkə ilə enerji sahəsində yüksək əlaqələr var. Yeni baş nazirlərin seçilməsi fonunda bizi düşündürən əsas suallar bunlardır. Sunak və Meloni Bakı üçün nə vəd edir, onların rəhbərliyində Böyük Britaniya və İtaliyanın Azərbaycana münasibəti hansı istiqamətdə formalaşacaq?

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə bildirib ki, istər Böyük Britaniya, istərsə də İtaliya Avropanın köklü siyasi sisteminə malik ölkələridir.**



**Analitik deyib ki, hər iki ölkə fərqli xarici siyasətlərə malik olsalar da, yeni baş nazirlərin ölkələrinin Azərbaycanla bağlı mövqeyində ciddi dəyişiklik edəcəyi inandırıcı deyil:** "Sunakla bağlı ən narahatedici məqam yəqin ki, onun hind mənşəli olmasıdır. Ancaq bu, yersiz narahatlıqdır. Belə ki, Sunak qlobalist bir şəxsdir. Onun dünyaca tanınmış bank-maliyyə elitası ilə əlaqələri genişdir. Sunakın bütün əlamətləri, həmçinin fəaliyyəti onun hərtərəfli ingilisləşmiş olduğunu göstərir. Sunak hind milliyyətçisi olsa idi belə Britaniya siyasi sistemindən kənara çıxa bilməzdi. Corciya Meloniyə gəldikdə isə onun oktyabrın 25-də parlamentin aşağı palatası olan Deputatlar Palatasının Baş Assambleyasında çıxışı Azərbaycanla münasibətlərinə necə formalaşdıracağına aydınlıq gətirir. Enerji problemindən danışan Meloni bildirib ki, İtaliya Putinin şantajına boyun əyməyəcək: "Putinin enerji şantajına boyun əymək problemi dərinləşdirmək deməkdir. Azadlığın öz qiyməti var".

**Ekspert vurğulayıb ki, İtaliya Rusiyanın qaz asılılığından xilas olmaq yolunda sürətlə irəliləyən ölkələrdən biridir:** "Son 7 gündə ümumiyyətlə İtaliya "Qazprom"dan qaz almayıb. Bu, 1974-cü ildən bəri ilk belə haldır. Görünür, Meloni də keçmiş baş nazir Draginin bu siyasətinə sadiq qalacaq. İtaliyanın Rusiyadan qaz nəqlini dayandırması bu ölkənin qaza olan tələbatını digər ölkələrdən, həmçinin Azərbaycandan qaz nəql edərək kompensasiya edə biləcəyini göstərir. Bu isə ondan xəbər verir ki, iki ölkə arasında enerji sahəsində əməkdaşlıq Corciya Meloninin dövründə də davam edəcək. Nəticə etibarilə i?stər Rişi Sunakın, istərsə də Corciya Melonin baş nazirliyində Böyük Britaniya və İtaliyanın Azərbaycana qarşı mövqeyində elə də ciddi bir dəyişiklik olmayacaq".

**İsmayıl Qocayev**



# Dəqiq məlumatlar var

## Ağdam, Cəbrayıl və Laçında məzarlıqlar minalanıb

**"Ağdam rayonunun Yusifcanlı və Qarağacı, Cəbrayılın Cocuq Mərcanlı, Laçın rayonunun Suarası kəndlərində yerləşən məzarlıqların minalanmasına dair dəqiq məlumatlar var".**

Bu barədə "Şərq"ə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat Xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, ANAMA tərəfindən aparılan tədqiqat və təmizləmə əməliyyatları zamanı keçmiş təmas xətti və bu ərazilərin ətrafında yerləşən bağlar, meşələr, üzümlüklər, dağıdılmış yaşayış məskənləri, məzarlıqlar, çay kənarları və.s yerlərin ciddi şəkildə minalarla çirkləndirilməsi aşkar edilib:

"2021-ci ildə Ağdam rayonunun Yusifcanlı kənd məzarlığında 2 nəfər mülki şəxsin həlak olması, 2 nəfərin xəsarət alması, həmçinin son hadisə olaraq 21 oktyabr tarixində Laçın rayonunun Suarası kəndi məzarlığında 1 nəfər şəxsin həlak olması, digər birinin xəsarət alması ilə nəticələnən mina hadisələri buna sübutdur.

Məzarlıqların, insanların müqəddəs yerlərinin, eyni zamanda, mədəni-tarixi abidələrə gedən yolların, bu yerlərin ətrafının, az sayda dağıdılmamış evlərin və həyətyani sahələrinin minalanması, o cümlədən tələ minaları ilə kütləvi şəkildə çirkləndirilməsi insanlığa qarşı törədilmiş cinayətdir".

# Gürcüstan hökuməti siqaret çəkənlərin sayını azaldıb

## Azərbaycanda isə qanunlara əməl edən yoxdur, qapalı yerlərdə hələ də siqaret çəkənlərə rast gəlirik

**Son 4 ildə Gürcüstanda siqaret çəkənlər arasında tütündən istifadə 10 faiz azalıb. Tütünlə Mübarizə Alyansının rəhbəri Qiorqi Baxturidzenin məlumatına görə, bu gün Gürcüstanda əhalinin 27 faizi tütün istifadəçisidir. Onların hədəfi isə 2040-cı ilə qədər bu rəqəmi 5 faizə endirməkdir:**

"Son 4 ildə siqaret çəkənlər arasında tütün istehlakı 10 faiz azalıb. Bu, tütünə qarşı mübarizə islahatlarının kompleks şəkildə həyata keçirilməsinin nəticəsidir. İctimai toplantılarda, qapalı yerlərdə siqaret çəkməyin qadağan edilməsi, vergilərin və qiymətlərin artırılması, tütünlə bağlı hər cür marketinq, tanıtım, reklamın qadağan edilməsi Avropa ölkələrinin təcrübəsinə əsaslanaraq gözlədiyimiz nəticəni verdi. Yeni təşəbbüsümüzə görə, 2020-ci ildən sonra doğulan və yetkinlik yaşına çatacaq gənclərə hər hansı tütün məmulatının satışı qadağan ediləbilər. Bildiyiniz kimi, kazinolarda və slot klublarında siqaret çəkməyə icazə verilir ki, bu da bizim üçün qəbuledilməzdir. Biz tələb edirik ki, bu ölümcül məhsulun qumar biznesində istifadəsi tamamilə qadağan edilsin".

Qeyd edək ki, Gürcüstanda yanvarın 1-dən etibarən siqaret yeni qablaşdırmada satışa çıxarılacaq. Hökumətin qərarına əsasən, 2023-cü il yanvarın 1-dən etibarən tütün yeni qablaşdırmada satışa çıxarılacaq. Səhiyyə nazirinin müavini Tamar Qabunia jurnalistlərə açıqlamasında bildirib ki, sadə qablaşdırma tütünün cəlbediciliyini azaldacaq və istehlakçı bir baxışda bir markanı digərindən asanlıqla ayırd edə bilməyəcək. Dəyişikliyə əsasən, tütün məmulatlarının qablaşdırılmasında və hər bir siqaretin üzərində brend, loqo, əmtəə nişanı və ya onu göstərən digər elementdən istifadə etmək qadağan ediləcək.

Bundan başqa siqaret qutusunun böyük bir hissəsini sağlamlıq riskləri barədə xəbərdarlıq edən yazılar və piktoqramlar tutacaq.



Millət vəkili təklif edir ki, siqaretin qiymətini 30-40 manata qaldırmaq lazımdır

**Millət vəkili Razi Nurullayevin sözlərinə görə, Azərbaycanda bir neçə il əvvəl "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunla qapalı məkanlarda siqaret çəkmək qadağan edilib. Amma bu qanuna nəinki əməl edən, heç "salam" verən də yoxdur:** "Yenə də əksər ticarət obyektlərində, kafelərdə siqaret çəkilir. Yalnız dövlət orqanlarında qanunun tələblərinə əməl edilir. Təəssüf ki, ölkədə qəbul edilən əhəmiyyətli qanunlar ictimai dəstək tapa bilmir. Buna səbəb isə bu işə nəzarət edən dövlət qurumlarının kütləvi informasiya vasitələri və ictimaiyyətlə işləyə bilməməsidir. Qəbul olunmuş qanunun prinsipial tətbiqini həyata keçirmək lazımdır. Mən siqaret çəkmirəm və siqaret çəkən insanların da hüquqlarını pozmuram. Qanunun icazə verdiyi yerlərdə kim nə qədər istəyir siqaret çəksin. Amma qapalı yerlərdə, ictimai yerlərdə siqaret çəkənlər nəzərə almalıdırlar ki, onlar bizim bu hüquqmuzu pozurlar".

Deputat həmçinin deyib ki, bəzi insanlar siqaret çəkməklə kifayətlənməyib ətrafındakı insanları da buna sövq etməklə tütündən istifadəni stimullaşdırır: "Bu çox yanlış hərəkətdir. Əvvələ ona görə ki, siqaret çəkmək insan sağlamlığı üçün təhlükəlidir! İctimai yerlərdə siqaret çəkildikdə ətrafdakılar özgəsinin siqaret tüstüsünü udmaqla passiv siqaret çəkməyə məruz qalırlar. Tütünçəkmənin məhdudlaşdırılması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi də məhz əhalinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, uşaqların, yeniyetmələrin və gənclərin sağlam böyüməsi və inkişafı, zərərli vərdişlərə aludəçiliyin profilaktikası, tütün məmulatlarının istehlakının zərərli təsirinin azaldılması məqsədi daşıyır".

**R.Nurullayev inanır ki, Gürcüstanda siqaretin sadə qablaşdırmada satılması ondan istifadə edənlərin sayını daha da azaldacaq:** "Həqiqətən də tütünün cəlbedici qablaşdırmada olması ona marağı artırır. Şəxsən mağazaya gedəndə siqaret qutuları mənim də diqqətimi cəlb edir. Adam hərdən fikirləşir ki, bu cür gözəl və rəngarəng qutularda satılan məhsul nə qədər zərərli ola bilər ki!? Halbuki dizaynı fərqli olsa da, bütün siqaretlərin hamısı eyni tərkiblidir. Sadəcə, marketinq səbəbindən qablaşdırması fərqlidir. Siqaret insanların gündəlik tələbat məhsulları sırasına daxil olmadığı üçün tütün məmulatlarının qiymətinin bahalaşdırılmasının tərəfdarıyam. Bəzi ölkələrdə siqaretin bir qutusu 30-40 manata satılır".

**Şəymən**



# Ekspres avtobusların marşruta buraxılması çıxış yolu deyil

## İlqar Hüseynli: “Sərnişin niyə 1 saatlıq yolu 2 saata, həm də ayaqüstə getməlidir?”

**Paytaxtda ekspres avtobuslar fəaliyyətə başlayır. Bu gündən etibarən ”E1” ekspres marşrut xətti üzrə avtobuslar metronun ”Xalqlar Dostluğu” stansiyasından başlayaraq Qara Qarayev prospekti - ”Koroğlu” metro stansiyası - Heydər Əliyev prospekti - Yusif Səfərov küçəsi - Neftçilər prospekti - ”Azneft” dairəsi - Bibiheybət -Lökbatan Nəqliyyat Mübadilə Mərkəzi istiqamətində hərəkət edəcək. Bu, Bakı Nəqliyyat Agentliyinin məlumatında bildirilir.**

Qeyd edilir ki, marşrut xətti üzrə sərnişindaşımaları ”BakuBus” MMC-nin istismarında olan avtobuslarla icra ediləcək. İlkin mərhələdə daşımalara 10 ədəd avtobus cəlb ediləcək. Xətt üzrə avtobuslar səhər saat 06:30-dan axşam saat 18:30-dək fəaliyyət göstərəcək. Gediş haqqı 0.60 AZN olacaq. Avtobuslar hərəkət sxemi üzrə bütün dayanacaq məntəqələri üzrə deyil, yalnız əvvəlcədən müəyyən edilmiş sərnişin tələbatı daha çox olan məntəqələrdə dayanacaq. ”E1” xəttinin fəaliyyətə başlaması ilə vətəndaşların rahat, əlavə ödəniş etmədən metronun ”Xalqlar Dostluğu” stansiyasından Lökbatan Nəqliyyat Mübadilə Mərkəzi istiqamətində rahat və birbaşa ictimai nəqliyyatla sürətli gedişgəlişi təmin ediləcək. Bu da öz növbəsində vətəndaşların metrodan, qeyd olunan istiqamətdə qanunsuz sərnişindaşıma vasitələrindən, eləcə də fərdi avtomobillərdən istifadəsini azaldacaq”.

Bəs nəqliyyat problemləri üzrə ekspertlər nə düşünür, yeni ekspres xətt marşrutunun faydası olacaqmı, tıxaclara, sərnişin sıxlığının azalmasına, sərnişinlərin vaxtında və komfortlu bir şəkildə mənzil başına çatmasına?

**Nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli ”Şərq”ə açıqlamasında məlum yeniliyi detallar üzrə təhlil etdi:**

- Yeni ekspres marşrut xəttinin trayektopriyasına diqqət edək: Metronun ”Xalqlar Dostluğu” stansiyasından Bibi-Heybət-Lökbatan Nəqliyyat Mübadilə Mərkəzinədək bu avtobuslar məlum marşrut xətti üzrə hərəkət edir. Hansı ki, bu xətt üzrə daim tıxaclar müşahidə olunur. ”Qara Qarayev” prospekti, ”Koroğlu” metrostansiyası, H.Əliyev prospekti, Yusif Səfərov küçəsi, ”Neftçilər” prospekti, ”Azneft” dairəsindən Bibi-Heybət istiqamətində geniş hərəkət zolağına çıxanadək yerüstü intensiv hərəkət qeyri-mümkündür. Ekspres avtobuslar fərqli küçələrlə hərəkət etməyəcək axı, eyni istiqamətdə, eyni küçələrlə hərəkət edəcəklər. Onların tıxaca düşməyəcəyinə, hərəkət intervalında gecikmələr yaranmayacaına necə zəmanət verirlər? Bu, bir. İkincisi, ekspres avtobuslar digər ictimai nəqliyyatla eyni istiqamətdə, eyni vaxtda, tıxaca düşə-düşə hərəkət edəcəksə, niyə gediş haqqı 60 qəpikdir? Üstünlüyü nədir bu avtobusların? Üçüncüsü, ekspres adlanan bu avtobuslar axşam saat 18:30-dək fəaliyyət göstərəcək. Bəlkə ilkin mərhələdə belə nəzərdə tutulub, sonra fəaliyyət müddəti uzadılacaq, amma hətta ilkin mərhələ üçün də bu az vaxtdır, nəzərə alsaq ki, şəhərdə həftənin iş günlərində pik saatlar ən azı saat 20:00-dək davam edir. Ümumiyyətlə, şəhərdə ”pik” olmayan vaxt, saat qalmayıb. Artıq tıxaclar daimi və xəstə bir hal almaqdadır. Və niyə axşam saat 7-nin yarısınadək. Yəni buvaxtadək işçilər artıq evlərinə dönmüş olur? İş vaxtları müxtəlifdir, ölkədə. Özəl müəssisələr

> “Yeni avtobuslara, hansısa eksperimentlərə bu qədər vəsait sərf edincə, metrobus xətləri çəksinlər, ictimai nəqliyyat üçün xüsusi zolaqlar ayırsınlar”

var ki, iş vaxtı axşam saat 20:00-da bitir. Bu zaman işdən çıxan adam ekspres avtobuslardan istifadə edə bilməyəcək. Yəni bu yeni ekspres marşrut xəttində yenilik nədən ibarətdir? Bu marşrut xətti bizə pandemiyadan tanışdır. ”M2” saylı marşrut xətti üzrə hərəkət edən ”Bakubus”lar məhz bu xətt üzrə hərəkət edirdi və çox uzun bir yol qət etmiş olurdu. Sərnişinlər narazı idilər. Metro ilə yarım saata gedilən məsafəni bu avtobuslar 2 saata başa vururdu. Yaxşı, o zaman pandemiya idi, karantin qaydaları tətbiq edilirdi, metro qapanmışdı. İndi ki metro qapalı deyil. Sərnişinlər 60 qəpiyə uzun yol qət etməkdənsə, 30+30 sərf edib daha tez işə, sonra da evə çatmağı üstün tutacaqlar. Gediş haqqında güzəşt də yoxdur ki, aztəminatlı vətəndaş (avtobusla işə gedib-gələn zatən aztəminatlıdır - M.R.) pula qənaət edəcək deyə ekspres avtobusa üstünlük versin, uzun bir yol qət etməli və zaman itirmiş olsa da. Bir məsələ var ki, ekspres avtobuslar digər ictimai nəqliyyat vasitələrinə nisbətən kondisioner və isitmə sistemi sayəsində komfortlu ola bilər. Amma burada da oturacaq sayı məsələsi var. Uzun məsafələrə hərəkət edən avtobuslarda oturacaq sayı çox olmalıdır, sərnişinlər 1 saat ayaq üstə qala bilmir. ”Bakubus” avtobuslarında isə oturacaq sayı o qədər də çox deyil. Bu avtobusların salonunda orta hissə genişdir. O da ayaqüstə gediş üçündür. Nəzərəçarpan üstünlüyü olmayan ekspres avtobuslarda məsafənin uzunluğu əsas alınaraq gediş haqqı 60 qəpik təyin edilibsə, dediyim kimi bu, sərnişinlərə sərf etməyəcək. Nə qiymət, nə vaxt, zaman, nə də komfort etibarilə. Hesab edirəm ki, BNA-nın yeni ekspres marşrut xətti, sadəcə, bir eksperimentdir. Eksperimentin müsbət nəticəsinin olacağına isə detallara baxıldığında inam azalır. İşə gedib-gələn vətəndaş ekspres avtobusu tapmayanda, yenə 1 manatlıq taksilərdən istifadə edəcək, çünki bu taksilərin manevr imkanları genişdir. Qiyməti də, zaman və komfort baxımından sərf edir. Sərnişin niyə 1 saatlıq yolu 2 saata, həm də ayaqüstə getməlidir? Ondansa, 1 manat ödəyib evinə rahat bir şəkildə, həm də daha tez çatar.

**İ.Hüseynli qeyd etdi ki, ictimai nəqliyyatdakı problemləri həll etmək və şəhərdə dözülməz hal almış tıxacları aradan qaldırmağın sadə həll yolları var:**

- Lakin nədənsə, BNA da, bu işə məsul olan digər dövlət qurumları da məsələni köklü həll etməyə səy göstərməkdənsə, yenə də əlavə, kosmetik üsullara əl atırlar. Bu bilirsiz nəyə bənzəyir? Kasıb adam xarab olmuş hansısa əşyası üçün əvvəlcə Çin detalı alır, əşya bir müddət işləyir, yenə xarab olur, sonra Rusiya detalı alır, əşya yenə bir müddət işlədikdən sonra xarab olur. Halbuki o adam ilk başda alman istehsalı detal alsaydı əşyası daha zəmanətli işləyəcəkdi. Bizim qurumlar da külli miqdarda vəsait sərf edərək bir ucdan yeni avtobuslar alırlar, müxtəlif ölkələrdən. Amma bu avtobusların alınmasıyla ictimai nəqliyyatın problemləri həllini tapmır, əksinə, getdikcə daha da ağırlaşır. Yeni avtobuslara, hansısa eksperimentlərə bu qədər vəsait sərf edincə, metrobus xətləri çəksinlər, ictimai nəqliyyat üçün xüsusi zolaqlar ayırsınlar, avtobusların hərəkət yoluna digər nəqliyyat vasitələri daxil olmasın, avtobuslar dayanacaqlara sərbəst daxil olub çıxa bilsinlər, ictimai nəqliyyat şəhərin bütün istiqamətlərini əhatə etsin. Bununla şəhərdə rahat ictimai nəqliyyat sistemi təşkil etmək mümkündür. Nə qədər ki, bu işlər görülməyib, keyfiyyətli icitmai nəqliyyat olmayacaq.

Qeyd edək ki, nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev də dünən avtobus zolaqları məsələsinə toxunub. ”Ziya Bünyadov” prospektində avtobus zolağı çəkildiyi haqda məlumatı və fotonu paylaşan ekspert belə şərh yazıb: ”Bu prospekt hər gün pik saatlarında tıxaca bürünür, burada marşrut xətlərinin fasiləsiz hərəkəti çox vacibdir. Əsas məsələ, təbii ki, nəzarətdir. Digər küçələrdəki kimi nəzarət zəif olsa, onda bu addım sadəcə formal xarakter daşıyacaq. Çıxış yolu kimi bu zolağı yolun hərəkət hissəsindən xüsusi rezin ”tumba”larla fiziki olaraq ayırmaqdır.

**Məlahət Rzayeva**

# Türk dünyası indiki qədər bütöv olmayıb

## Buna görə Rusiya kanalları Azərbaycanı, İran kanalları da Türkiyəni hədəfə alıb



**”Azərbaycanın zəfəri regionda çoxlarını narahat etməkdədir”.**

*Bunu millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, məsələ bütövlükdə türk dünyasının üclənməsi ilə bağlıdır:* ”Rusiya dövlət kanalı Azərbaycanı hədəfə alırsa, İran kanalları Türkiyəni də yaddan çıxartmırlar. Türk Dövlətləri Təşkilatı regionda daha da real gücə çevrilincə ənənəvi türk düşmənləri daha aktivləşirlər. Məsələ sadədir. Əgər türk ölkələri bir dövlət olsaydılar, o zaman həmin dövlət alıcılıq qabiliyyəti nəzərə alınmaqla ümumi daxili məhsulun (ÜDM) həcminə görə dünyada ən böyük 7-ci ölkə olardı. Türk dövlətlərinin alıcılıq qabiliyyəti nəzərə alınmaqla ümumi daxili məhsulun həcmi 4 trilyon 586 milyard dollardır. Bu, Böyük Britaniya, Fransa və İtaliya kimi ölkələr ilə müqayisədə daha böyük real iqtisadiyyat deməkdir. Alıcılıq qabiliyyəti ilə Türkiyə 3 trilyon 320 milyard, Qazaxıstan 596,7 milyard, Özbəkistan 334.3 milyard, Azərbaycan 178.7 milyard dollar ÜDM-yə malikdirlər. Strateji coğrafı yerləşməni də keyfiyyət meyarı olaraq nəzərə alsaq, o zaman türk dünyasının gücünü təsəvvür etmək çətin olmaz. Bu güc bəzilərini narahat etməkdədir. Amma türk dünyası bütövləşir, əməkdaşlıq genişlənir. Türk dövlətləri indiki qədər heç zaman yaxın və birgə olmayıblar. Buna sevinənlər də var, narahat olanlar da”.

**İsmayıl**

# “Mətbuatın zəhərlərini uda-uda yaşaya bilsəm...”

## Anar: “Hələ 5 il yaşayacağam və sədr kimi fəaliyyət göstərəcəyəm”



**“Əgər mətbuatın zəhərlərini uda-uda yaşaya bilsəm, bundan sonra hələ 5 il yaşayacağam və sədr kimi fəaliyyət göstərəcəyəm”.**

Bunu jurnalistlərə açıqlamasında Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri Anar Rzayev deyib.

**O, mətbuata xahişlə müraciət edib:**

”Mətbuatdan xahiş edirəm ki, AYB-yə düşmən münasibəti bəsləməyin, qərəzli yazılar yazmayın, hər şeyi tərsinə yozmayın. Bir az obyektiv və insaflı davranın”.

# İranda terror aktında 15 nəfər ölüb

## 40-a yaxın şəxs yaralanıb



**İranda terror aktı nəticəsində 15 nəfər ölüb, 40-a yaxın şəxs yaralanıb.**

”Report” ”Mehr”ə istinadən xəbər verir ki, bu barədə İran Ali Milli Təhlükəsizlik Şurası məlumat yayıb. Bildirilib ki, ölənlərdən biri qadın və üçü isə uşaqdır.

Hücumun axşam namazına hazırlaşan insanları hədəf aldığı vurğulanıb. Belə ki, bir terrorçu ziyarətgaha giriş qapısından daxil olduqdan sonra ibadət edənlərə atəş açmağa başlayıb. Silahlı şəxsin İran təhlükəsizlik qüvvələri tərəfindən saxlanıldığı bildirilib.

## Müzakirə



# DİM nə etdiyini özü də bilmir

## Dünyanın heç bir ölkəsində IX sinif şagirdinə bu qədər işgəncə verilmir

**Dövlət İmtahan Mərkəzi 2022-2023-cü tədris ilində ümumi (9 illik) orta təhsil səviyyəsində təşkil olunan buraxılış imtahanında xarici dillər üzrə şagirdlərin bilik və bacarıqlarını yoxlayan test tapşırıqlarının forma və məzmununda gözlənilən dəyişikliklərin detallarını açıqlayıb. Dəyişikliklərə əsasən, 2022-2023-cü tədris ili üzrə ümumi (9 illik) orta təhsil səviyyəsində təşkil olunan buraxılış imtahanında ümumi dil biliyini yoxlayan qapalı tipli sualların sayı azaldılaraq 12 olacaq. Qeyd edilib ki, şagirdlərə dinləyib-anlama bloku üzrə bir mətn və mətnə əsasən 4 qapalı tipli test tapşırığı təqdim olunur:**

"Dinləmə mətnlərində söz sayı 140-150-dir və təqdim olunan mətnlərin mövzuları orta məktəb dərsliklərində qeyd olunan mövzulara uyğundur. Oxuyub-anlama bloku üzrə şagirdlərə birinci hissədə bir neçə cümlədən ibarət 3 kiçik mətn və hər mətnə aid bir qapalı tipli (çoxseçimli) test tapşırığı təqdim olunur. İkinci hissədə isə əvvəlki illərdə olduğu kimi publisistik üslubda 150-170 sözdən ibarət bir mətn və mətnə aid 4 qapalı (çoxseçimli) və 1 açıq tipli (seçim) sual təqdim olunur. İki hissədən ibarət oxu tapşırıqlarının təqdim olunmasında əsas məqsəd şagirdlərin fərqli dil səviyyələrinə uyğun olaraq fərqli test tapşırıqları vasitəsilə onların bilik və bacarıqlarını qiymətləndirməkdir". "Yazılı cavab tələb edən açıq suallar şagirdlərin bilik və bacarığını 5 balla qiymətləndirən hekayə tipli yazı tapşırığı ilə əvəz olunur. Bu blokda şagirdlərə üç ədəd ardıcıl nömrələnmiş şəkil və onları yönləndirəcək açar sözlər də təqdim olunur və şəkillər əsasında minimum 5 cümlədən ibarət hekayə qurmaq tələb olunur. Yazı tapşırığı meyarlara əsasən yoxlanılır. Burada tapşırığın şərtinin yerinə yetirilməsi vacibdir. Bundan başqa birləşdirici vasitələrdən istifadə etməklə ardıcıllıq və məntiqi rabitəni gözləmək, qrammatik və leksik qaydalara əməl etməklə yazı tapşırığını yerinə yetirmək tələb olunur", - rəsmi məlumatda vurğulanıb.

**Məlum dəyişikliyi şərh edən təhsil eksperti Kamran Əsədov bildirib ki, DİM IX sinif şagirdləri üçün keçiriləcək buraxılış imtahanında növbəti dəfə, son 3 ildə 4-cü dəfə dəyişiklik edib:**

- İnanın, Elm və Təhsil Nazirliyi ilə əlaqə saxlayıb soruşsanız ki, IX siniflər üçün buraxılış imtahanları necə keçirilir, deyəcəklər, xəbərimiz yoxdur. Tək onlar xəbərsiz deyil, dost-qohumları arasından təyin etdiklərinin də xəbəri yoxdur. Nə isə, gələk məsələyə. IX sinif şagirdləri bu ildən xarici dil fənnindən 3 şəkil əsasında 5 cümləlik mətn qurmalıdır. Düzdür, bu, 2008-ci ildən orta məktəblərdə tətbiq edilən kurikulum standartlarında nəzərdə tutulub və yazı məzmun xəttinin alt standartına görə şagird hətta aşağı siniflərdən şəkil əsasında cümlə qurmağı bilib bacarmalıdır.



**K.Əsədovun fikrincə, DİM nə etdiyini özü də bilmir:**

- IX sinif buraxılış imtahanını verən şagirdə imtahandan sonra diplom vermək lazımdır. Bu şagird 3 saat ərzində 3 fərqli fənnin azı 12 standartını, yüzlərlə alt standartını reallaşdırmalıdır. Başa düşürsünüz? 3 saat ərzində bu 14-15 yaşlı uşaq 85 test tapşırığında açıq, qapalı, situasiya sualları ilə yüzlərlə alt standartı tətbiq etməlidir. Guya bu suallar ilə minimum bacarıqlar yoxlanılır? Bu qədər çətin imtahan ilə biz nəyə nail olmaq istəyirik? Onsuz da şagird orta məktəbdə KSQ, BSQ ilə bu biliklərin yoxlamasından keçib, bir də azyaşlı uşaqları belə çətin imtahana niyə salırıq? Dünyanın hansı ölkəsində IX sinif şagirdinə belə işgəncə verilir?! İngilis dili fənni orta məktəbdə bir sinif üzrə 2-3 dərs tədris olunur. Təsəvvür edin, 14-15 yaşlı uşaq bir imtahanda həm listinq, həm readinq, həm "writing h'm" qrammatika və s. bilməli, bacarmalı və 1 saat ərzində tətbiq etməlidir. Bu ağır imtahanlarla biz hədəf olaraq qarşıya qoyduğumuz şəxsiyyəti formalaşdıra bilmərik. Bu ona bilik vermək deyil, bu, uşaqları repetitorluğa, hazırlıq kurslarına yönəltməkdir. Son 5 ildə keçirilən IX siniflər üzrə buraxılış imtahanlarının nəticələrini təhlil etsək, görərik ki, xarici dil üzrə nəticələr çox aşağıdır. İmtahanları çətinləşdirməklə biz keyfiyyəti yüksəltməyə nail olmayacağıq.

Qeyd edək ki, IX sinif buraxılış imtahanları ilə bağlı sosial şəbəkələrdə də geniş müzakirə edilir, valideynlər təhsil sistemindən narazılıqlarını bildirirlər:

**Gülşən Həbibova:** Qızım X sinif tələbəsidir, yazığım gəlir vallah, inanın, bu, oxumaq deyil, uşaqlarımıza verilən işgəncədir. Gündən-günə də çətinləşdirirlər. Sanki 15-16 yaşında uşaq yox, robotdur. Mən vallahi, nifrət edirəm bu təhsil sisteminə, amma qızım da oxumaq istəyir. Allah əziyyətlərini itirməsin oxuyan uşaqlarımızın. Amin.

**Günay Məkkə Əliyeva: Hələ bu harasıdır, oxuyandan sonra imtahanla işə qəbul olacaq, sonra işləyə-işləyə imtahan edəcəklər, ardı var...**

**Gülşən Həbibova:** Razıyam. Beləcə gənclərimiz əsəbi və nevrozla yaşayır.

**Nazənin İsmayılova:** Heç olmasa, nümunə sualları dərc etsinlər, təxmini necə formada olacağını həm müəllimlər, həm də şagirdlər bilsinlər. Amma xarici dil deyiləndə həmişəki kimi təkcə ingilis dilini nəzərdə tutmasınlar, Azərbaycanda başqa xarici dillər də tədris olunur.

**Rəmziyyə Həsənova:** Yaxşı ki, bu dəfə imtahana 1 ay qalmış demirlər bu "yüksək" dəyişimi.

**Ramin Şükürov:** Bəli, proqram nə qədər çətin olsa məcburi, repetitora müraciət ediləcək.

**Kəmalə Hacıyeva:** DİM-dən soruşun bu problemi. Gündə tələbləri ağırlaşdıra-ağırlaşdıra gedir. DİM nəyə nail olmaq istəyir, bax, onu bilmirik.

**Nailə Əliyeva:** Yazıq uşaqlar

**Aynurə Azayeva:** Mən şəxsən nə valideyn, nə də müəllim kimi razıyam bu dəyişikliklə. Çünki qarşımızda yüzlərlə şagird oturur. Karset, eynək və s. çantalarıyla bərabər yol yoldaşıdı şagirdlərin. Normal yuxu da yatmırlar. Üstəgəl, valideyn danlağı. Axırda da intihar. Beyin pozulur, psixologiya pozulur

**Roza Eynullayeva:** Uşaqların sağlamlığı əldən gedir, biz nəyi itirib, nəyi qazanırıq? Nə qədər həkimlər gənc yaşda vəfat ediblər. Məncə, biliklərin əsasları öyrədilməli, qalanlarını isə kim nəyi istəyir onu özü araşdırıb öyrənməlidir. Ali məktəblər də bərbaddır.

**Kamila Nuriyeva:** Şəxsən bizim orta məktəbdə bir ingilis dili müəllimesi var idi, həm də "zavuç" işləyirdi. Hec bir dəfə də olsun dərs keçmirdi .Ya, sinfi birləşdirirdi, ya da evə buraxırdı

Belə!.. Bizcə də DİM imtahanlara hər dəfə hansısa dəyişikliklər etməkdənsə, Elm və Təhsil Nazirliyi ilə birgə müzakirə aparıb, vətəndaşların, cümləcamaatın təhsil sistemindən niyə narazı qaldığını araşdırmalıdır. Nəyisə dəyişməklə təhsildəki problemləri köklü həll etmək mümkün olmayacaq.

**Məlahət Rzayeva**



# Putin son variantı hazırlayır

## Rusiya ordusu nüvə silahı təliminə başladı

**Rusiya Silahlı Qüvvələri nüvə silahlarının təlimini keçirir.**

Bunu Rusiyanın müdafiə naziri Sergey Şoyqu deyib.

Rusiya KİV-in yaydığı məlumata görə, quru, dəniz və hava strateji çəkindirmə qüvvələrinin təlimi Rusiya Prezidenti Vladimir Putinin rəhbərliyi altında keçirilir.

Təlimə qanadlı raketləri buraxan uzaqmənzilli "Tu-95MS" təyyarələri də cəlb olunub.

Hərbi komandanlıq və idarəetmə orqanlarının hazırlığı, rəhbər və əməliyyat heyətinin qoşunların idarə olunmasının təşkili üzrə bacarıqları yoxlanılıb. Report Məlumata görə, Plesetskdən "Yars", Barents dənizindən "Sineva" ballistik raketi, Kamçatkadakı "Kür" polqonundan qitələrarası ballistik raket buraxılıb.

*Xatırladaq ki, S.Şoyqu və Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev bundan əvvəl ölkələrinin özünümüdafiə üçün bütün silahlardan, o cümlədən nüvə silahından istifadə etmək ehtimalını açıqlayıblar.*

# Sonda Bakının istədiyi olacaq

## Sülhü pozanlar öz məqsədlərinə çatmayacaqlar

**"Son günlər Minsk Qrupunun hər üç üzvü, o cümlədən bəzi regional dövlətlərin ictimai adamları, millət vəkilləri, rəsmiləri və mediası tərəfindən Azərbaycana qarşı davamlı olaraq təbliğat aparıldığının şahidiyik".**

*Bu sözləri Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov deyib. Analitik bildirib ki, bu kontekstdə həm Qərb, həm Rusiya, həm də İran ciddi şəkildə Azərbaycana pressinq edirlər:* "Bu dövlətlər hansısa maraqlarının Bakı tərəfindən qəbul olunmasını istəyirlər. Təbliğata BBC-nin də qoşulması və daxilimizdə bəzi "siyasi fəalların" adı çəkilən "xəbər carçısı"na Bakını tənqid edən şərhlər verməsi sözsüz ki, birmənalı qarşılana bilməz. Rusiya, İran, Fransa kanallarında, o cümlədən BBC-də gedən süjetlərə, o cümlədən Parisin noyabrın ortasında Azərbaycana qarşı qətnamə qəbul etmək fikrində olmasına baxmayaraq sonda Bakının istədiyi olacaq. Azərbaycan- Ermənistan arasında danışıqlara müdaxilə edən və əldə edilən razılıqların icrasının qarşısını almaq istəyən, razılaşdırılmış sülh müqaviləsinin qaralamasını yayan müəyyən dövlətlər öz məqsədlərinə çatmayacaqlar".

**İsmayıl**

# Bir nəfər ölüb

## 41 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 41 yeni yoluxma faktı qeydə alınıb, 63 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 823 064 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 812 806 nəfər müalicə olunaraq sağalıb, 9 941 nəfər vəfat edib, aktiv xəstə sayı 317 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 104, hazırkı dövrədək isə 7 311 644 test aparılıb.*

# Sən AZADsan, Azərbaycan!

## *Şəhidimizə rekviyem*



**Olduqca dərin məna yükü olan məşhur bir deyim var: "Torpağa su qatsan palçıq, qan qatsan Vətən olar". Əlbəttə, əsrlər, qərinələr və illər boyu hər parçası bir "qonşu"da əsir qalan odlar yurdu Azərbaycanın adi qara torpağına qan qatıb onu Vətənə çevirən şücaətli vətən oğullarımız olub, var və olacaqlar. Hələ Birinci və İkinci Qarabağ savaşı zamanı bu cür yenilməz, mərd oğullarımızın göstərdikləri, yazdıqları qəhrəmanlıq dastanları barədə çox eşitdik, çox oxuduq. "Vətəndən pay olmayır", "Qarabağsız Azərbaycan başsız bədəndir" şüarını illərdir, az qala ana laylasına, dövlət himninə çevirən Azərbaycan gəncliyi artıq bu işğalla barışmırdı.**

Nəhayət vədə yetişdi və Ali Baş Komandan İlham Əliyev "İrəli!" əmrini verdi. 30 illik işğala 44 gündə son qoyduq. Bu zəfər tarixi bizə asan başa gəlmədi. Şübhəsiz, illərdir, düşmən tapdağı altında inləyən, bağrı çatlayan torpaqlarımız azadlığına qovuşdu. Buna hamılıqla sevindik. Amma şəhidlərimiz, qazilərimiz də oldu. Yəni Azərbaycan xalqı elegiya yaşadı. Bir gözü güldü, biri də ağladı. Düşmən kapitulyasiya sənədinə imza atsa da, sonralar bu sənədə, öhdəliklərinə məhəl qoymadı. Sentyabrın 12-dən 13-nə keçən gecə geniş miqyaslı təxribata əl atdı.

Azərbaycan oğlu, Azərbaycan əsgəri bu təxribata tutarlı cavab verərək, düşməni geri oturtdu, hətta bir neçə strateji əhəmiyyətli mövqe və yüksəkliyi ələ keçirdi. Heç kimə sirr deyil ki, hərbi əməliyyatlar, savaş tarixləri itkisiz, şəhidsiz, qazisiz olmur, yazılmır. Təəssüf ki, bu, belədir. Sentyabr savaşında böyük döyüş rəşadəti göstərərək şəhadətə ucalan şəhidlərimizdən biri də Qazax rayon Daş Salahlı kənd sakini, Silahlı Qüvvələrin komandosu Kərimov Azad Zakir oğludur.

**Azad azad etməyə doğulmuşdu**

Azad mənim ocaq qonşumdu, yurddaşımdı, göz, qəlb, beyin yaddaşımdır. Yaxşı xatırlayıram, Azad hələ uşaqkən seçilmiş körpə idi. İlahi, necə yarışıqlı bala idi. Ağ bənizli, qırmızı yanaqlı, dəniz gözlü, güləruz, mehriban, həm də olduqca mərd... Qazax pəhləvanlar diyarı olduğu üçün, bir neçə gənc, uşaq bir araya gələn kimi onları güləşdirərdilər. Kimsə kimdənsə boyuna, əzələsinə görə çəkinərdi, güləşməzdi. Azada "Sən güləşirsənmi?" soruşanda himə bənd olmuş kimi dərhal "hə" deyərdi. Yıxdı, yıxıldı fərq etməzdi. Azad güləşərdi, o güləşin ardını savaşa çevirərdi. Barışmazdı məğlubiyyətlə. Bilirəm, Azad indi də barışmır o namərd düşmən gülləsi ilə... Sizi əmin edirəm, Azad həmin mərminin onun üzərinə gəldiyini görsə idi, onu əli ilə tutardı.

Azad uşaqlıqdan fərqli idi, özəl və gözəl idi. Bütün şəhidlərimizə baxın, diqqətlə baxın, hamısını sanki qələmlə çəkiblər. Allahın ən seçilmiş, sevilmiş, yaraşıqlı bəndələridirlər. İlahi, necə yarışıqlı balalar, qardaşlardı?! Hamısı bir-birindən qorxmaz, igid və gözəl. Azad da Allahın seçilmiş bəndəsi olduğu üçün, uca yaradan onu dərgahına tez apardı. Baxın, belə bir deyim var: "Ad özünə çəkir". Axı qəhrəmanımızın adı da Azaddır. Azad təkcə adı ilə deyil, əməli ilə də Azad olduğunu sübut etdi. Azadın dəfn xəbərini yazmışdım.



Başlıq belə idi: "Qazax şəhidini dəfn etdi". Azad, sonra "dəfn etdi" sözünü sənə yapışdıra, şayan edə bilmədim. Ağır gəldi, hətta estetik cəhətdən vulqar səsləndi. O xəbərin başlığını dəyişib belə yazdım: "Qazax şəhidini torpağa tapşırdı". İllərdir, bu torpağın azadlığı Azada və onun timsalında Azad kimi oğullara tapşırıblar. İndi də biz Azadı bu azad torpağa tapşırdıq. Qəti əminəm ki, ona Azad adının verilməsi də təsadüfi olmayıb. Azad azad etməyə doğulmuşdu və missiyasını başa vurub uğrunda qan töküb, can alıb, can verdiyi doğma torpağının qoynuna yollandı. Şəhadətin mübarək, əziz Şəhidim!

**Xüsusi qeyd:** Azad Kərimov İkinci Qarabağ savaşında könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrin tərkibinə qoşularaq ən qaynar nöqtələrdə döyüşüb və "İgidliyə görə", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin alınmasına görə" , "Şuşanın alınmasına görə", "Kəlbəcərin alınmasına görə" medalları ilə təltif olunub.

**Ailəsi barədə...**

Azadgil 4 qardaş *(Azad, Fərhad, Yolçu, Rüstəm,)* bir bacıdırlar (Rəqsanə). Azad ailəlidir, iki igid oğul balası, ciyar parələri - Yusif və Murad - böyüyür. Atalarının səs və nəfəsinin nisgilini çox yaşayacaq bu balalar. Azadın ata və anasını da yaxşı tanıyıram. Dediyim kimi, yurd qonşusuyuq. Əməksevər, minbir zəhmətə qatlanan, övladlarını sözün həqiqi mənasında alın təri ilə qazandıqları bir parça çörəklə böyüdən halal adamlardırlar. Onlar haqqında uzun-uzun danışa bilərəm, amma görünən dağa nə bələdçi?! Azad kimi əfsanəvi döyüşçü, vətənpərvər oğul yetişdirən ana və ata necə olar bilər ki? Əziz-xələf qonşularıma yalnız təsəlli verməkdən başqa əlimdən nə gəlir ki?!





Qazaxımızın şairi oğlu Məmməd İlqar yazır:

**Vətən başa çox iş gələr,**
**Baş əymə, başın sağ olsun.**
**Biz ölməyə doğuluruq,**
**Torpağın-daşın sağ olsun.**

**Neçə cəfakeşin qalır,**
**Bir evdən bir qoşun qalır,**
**Beşin ölsə, beşin qalır,**
**O qalan beşin sağ olsun.**

**Çat verir, çatlayır dözüm,**
**Sən çatlama, canım-gözüm.**
**Bizi ağlamağa gözün,**
**Bir də göz yaşın sağ olsun!**

Bu təsəlli misralarında çox dərin həqiqət payı gizlənir.

O həqiqət gizlənir ki, məşhur şeirdə deyildiyi kimi "Torpaq uğrunda ölən varsa, vətəndir". Söz yox ki, azadlıq və qəhrəmanlıq dastanları quru sözlərlə deyil, qanla alınır, yazılır. Amma Azad itkisinin təsəllisi yoxdur. Bu itkinin çəkilməz sancısı var. Atalar deyir: "Od düşən yeri yandırar". Amma Azadın itkisi hamımızın evinə od salıb yandırdı. Axı Azad tək öz evindən deyil, elindən, obasından, məmləkətindən, qohum, qonşu, dost və bir də ən sonuncu dəfə dəmir bilekləri, gül əlləri, qurşun barmaqları ilə mesaj yazdığı yarından getdi.

Şəhid *(Atası Azər Hüseynov Birinci Qarabağ müharibəsində şəhid olub)* qızı kimi böyüyən yarından, Ayşə xanımından getdi. O xanımı ki, Azadın "Sən mərd qadınsan, sənə çox güvənirəm" mesajını "Sənsiz məni ölmüş bil" deyə cavablayıb, lakin dəfn günündə çiyinlərini cənazənin altına verib, onu ölümsüzlük mənzilinə yola saldı. Bəli, ölümsüzlük mənzilinə... Axı şəhidlərin ölüm tarixi olmur, onların yalnız doğum tarixi olur. Həm də bilirik axı: - Şəhidlər vurulanda deyil, unudulanda ölürlər. Gəlin, şəhidlərimizi, Azadımızı unutmayaq, daim onu yazılarımızda, məclislərimizdə, hətta toylarımızda belə yaşadaq. Necə? Azadın toylarda oynadığı mahnını "zakaz" edək.

Azadın "Ana şəhid oldum" ifasını dinləyib, dərin-dərin, uzun-uzun, uzaq-uzaq xəyallara daldığı, göz, beyin işlədikdə dərinə gedən düşüncəsinə baxıb, köks ötürmüşəm, ağlamışam. Azyaşlı qızlarım göz yaşımı görməsin deyə bəzən həyətə düşmüşəm, bəzən işdə kövrəlmişəm, gözlərimdən süzülən damlalar klaviaturanın düymələrini döyəcləyib. Amma nə edə bilərəm ki?!. Mən də səngiməz ağır diş ağrısı kimi bağrımı qana döndərən bu hadisə ilə bağlı - Azadın itkisi, şəhadəti ilə bağlı yazıb, təsəlli tapıram, amma sakitləşə bilmirəm. Çünki Azad mənim Vətən boyda ağrımdır. Bu ağrı dinməyəcək. Heyhat! Bizə qalan Azadın adını yaşatmaq, onun həyat kredosu və hərbi xidmət yolunu ictimaiyyətə tam təfsilatı ilə çatdırmaqdır.

**"Əsgər mundirini geyinib şərəflə xidmət etmək onun uşaqlıq arzusu idi"**

Bu məqsədlə Azadla bir küçədə böyüyən, eyni sinfi, partanı bölüşən, onun uşaqlıq dostu, Daxili İşlər Nazirliyinin əməkdaşı Ziyaddın Mehdiyevlə əlaqə saxladıq.

**O bildirdi:**

"Azad mənim həm uşaqlıq dostum, həm də sinif yoldaşım olub. Biz 11 il eyni masa arxasında oturmuşuq. Onunla bağlı xatirələrimi aylarla, illərlə danışsam, bitməz. O çox tərbiyəli bir dost, insan idi. Uşaq vaxtı biz onunla Avey dağına çıxıb "quzu qulağı" yeyərdik. Dağın ən uca nöqtəsində Alban kilsəsi var. Bu kilsənin yanına gedib, orada xidmət aparan əsgərlərə tamaşa edərdik. Həmin hərbçilərimizə sual verərdik.

Onlar da bizə sərhədlərimizi necə qoruduqlarını izah edərdilər. Azadın hərbiyə olan marağı bu proseslərdən sonra formalaşmağa başlamışdı. Vətəni qorumaq və əsgər mundirini əyninə geyinib şərəflə xidmət etmək onun uşaqlıq xəyalı idi. Hərbi xidmət zamanı da onun görüşünə tez-tez gedirdim. Əsgərlikdə olduğu zaman da ordunun sıralarında qalmaq və dövlətimizə qulluq etmək istədiyindən danışırdı. Azad hərbi xidməti bitirdikdən sonra silahlı qüvvələrimizin sıralarında MAXE kimi qaldı".

**"Şəhid olmazdan 2 gün öncə telefonla danışdıq, dedi ki..."**

Z.Mehdiyev vurğulayıb ki, İkinci Qarabağ savaşında Azadın böyük qəhrəmanlıqları olub: "O, Ali Baş Komandanımız tərəfindən 5 medalla təltif olunub. Azad müharibə ərəfəsində 5-6 saatlıq istirahətə gəlirdi və mənə zəng edirdi ki, qabağıma çıx. Mən də maşınla onu qarşılayıb, evə gətirirdim. Sonunca dəfə Şuşanın azad edilməsindən sonra yenə gəldi. Gecə saat 2-də məni yığıb bildirdi:

- Ağstafaya yeni marketin qabağına çatıram, gəlib, məni götürərsən.

1 saatdan sonra onu götürüb evə gəldim. Evə çatanda hərbi çantanın balaca gözündən qolbaq və silah üçün dizlik kabro çıxarıb, mənə verdi. Azad şəhid olmazdan 2 gün öncə telefonla danışdıq".

**"Azad həm də çox savadlı idi"**

Z.Mehdiyev qeyd edir ki, o, Azadla birgə həm də riyaziyyat fənni üzrə hazırlığa gedib: "O, vətənpərvər, qorxmaz, şücaətli olmaqla yanaşı, həm də çox savadlı idi. Orta məktəbdə müəllimlər Azadı həmişə tərifləyirdilər. O mənə doğma qardaş kimi idi. Onun haqqında danışanda qəhər məni boğur, kövrəlirəm (kövrəlir). Çünki mən bir qəhrəman vətən oğlu, sədaqətli dost, vəfalı şəxsiyyət itirmişəm. Nə qədər ki nəfəs alıram, bu ağrı kəsməyəcək. Ruhun şad olsun, əziz dost".

İkinci Qarabağ savaşında Azad Kərimovla birgə çiyin-çiyinə döyüşən kəşfiyyatçı qazi Bəhruz Hacıyev də şəhidimizlə bağlı xatirələrini bölüşüb: "Azadla ilk tanışlığım "N" saylı hərbi hissədən başlayıb. O, bu hərbi hissənin müşahidə bölüyündə MAXE, mən isə kəşfiyyat bölüyündə olmuşam. Gizirlik kursunu keçəndən sonra Azad da kəşfiyyat bölüyünə gəlib və birlikdə xidmət etmişik".

**Qumbaranı əlinə alaraq dedi ki, əsir düşməkdənsə...**

B.Hacıyev İkinci Qarabağ savaşında şəhidimizlə birgə keçdikləri döyüş yolundan söz açıb: "Döyüşlərə ilk dəfə Kəlbəcər rayonunda başlamışıq. Bundan sonra isə "052" nömrəli hərbi hissənin tərkibinə könüllü qoşularaq Xocavənd və Şuşada döyüşmüşük. Noyabr ayının 5-i axşam saat 7-də isə Şuşaya daxil olmuşuq. Keçdiyimiz döyüş yolunda Azadın qəhrəmanlıqları çox olub.

*(Davamı səh.10)*



## Sən AZADsan, Azərbaycan!

*Şəhidimizə rekviyem*

(Əvvəli səh.9)

O, mərdcəsinə və qorxmazcasına döyüşürdü. Onun tək fikri torpaqlarımızı düşmən tapdağından azad etmək idi.

Azad 44 günlük müharibədə sona qədər döyüşmüşdü. Biz işğalda olan hər rayonu, kəndi geri qaytardıqca, o, daha da qürurlanır və sevinirdi.

Onunla bağlı ən yaddaqalan xatirəm isə Şuşa muzeyinin içində düşmən muhasirəsinə düşməyimiz olub. O, üstündəki qumbaranı əlinə alaraq dedi ki, əsir düşməkdənsə, özünü öldürmək yaxşıdır.

Ancaq biz onu fikrindən daşındırdıq. Bundan sonra isə mühasirədən qurtularaq sağ-salamat geri döndük. Bizim hər birimizin gözümüzün önünə o vaxtı soydaşlarımıza qarşı törədilmiş vəhşiliklər gəlirdi. Bizi ayaq üstə saxlayan bu amal idi. Torpaqlarımızı azad etdikdə sanki Azad da azad olurdu, ürəyinə su səpilirdi".

**"Hərbiyə dair bizə bircə kəlmə belə demirdi"**

Şəhidimizin kiçik qardaşı Rüstəm Kərimov da Azadın xarakteri, onun ailəsinə bağlılığı və vətənpərvərliyi barədə fikirlərini bölüşüb: "Hərbi xidməti başa vurub geri döndükdən sonra hərbiyə qayıtmaq istədiyini bildirdi. Evdən razılıq verdilər. Əvvəlcə N saylı hərbi hissədə kəşfiyyat bölüyündə MAXE idi. Sonra gizirlik kursuna getdi. Hərb işini çox sevirdi. Hərbiyə dair bizə bircə kəlmə belə demirdi. Soruşanda cavab verirdi ki, heç nə bilmirəm, başqa şey danışın".

R.Kərimov deyir ki, qardaşının onlarla münasibəti çox yaxşı olub: "Azad bizim valideynlərimizdən sonra məsləhət verənimiz idi. Fərhad və mən Azadın kiçik qardaşlarıyıq. Biz onun sözündən çıxmırdıq. Azad ailəcanlı adam idi. Bütün ailə üzvlərini çox istəyirdi, övladlarını isə lap çox istəyirdi. Uşaqlarına çox bağlı idi. Hər zəng vuranda övladlarını soruşurdu. Elə bil, beynim pozulub, yaddaşımda heç nə qalmayıb sanki. Azadın şəhidliyini hələ dərk etmirəm. Onun yoxluğuna inana bilmirəm".

Qardaşı bildirir ki, Azadın ən böyük arzusu hazırda tikilməkdə olan evinə köçmək idi: "Gələn ilin Novruz bayramı ərəfəsində mənzilinə köçməli idi. Ən çox bunu düşünürdü. Bir də deyirdi ki, evimə köçüm, sonra qardaşım Fərhadı evləndirək. Vəzifəyə də yüksəlmək istəyirdi. Bizi də işə düzəltməyə çalışırdı. Yenə qeyd edirəm, ailəmizi çox fikirləşirdi, balalarını, yoldaşını düşünürdü. O istəyirdi ki, hər işimiz yaxşı olsun, kimdənsə geri qalmayaq. Planları, arzuları çox idi, amma yarıda qaldı".

R.Kərimov sonda onu da əlavə edib ki, Azadın adına bulaq tikmək istəyirlər: "İndi işləyirəm, çalışırıq qardaşımın adına bir bulaq tikək. Onun adını yaşatmalıyıq".

**P.S. Yazını bitirdikdən sonra düşündüm ki, ailəsinə, yaxınlarına baş sağlığı verməyi unutdum. Amma onu da fikirləşdim ki, şəhid olan mənim də qardaşımdır. Kimdən kimə baş sağlığı verim! Torpağın yumşaq olsun, əziz AZAD!**

**Hazırladı: Ayyət Əhməd**

# İran agenturasına qarşı tədbir təcili başladılmalıdır!

## Sərdar Cəlaloğlu: "Ölkənin maraqlarına və qanunlarına zidd fəaliyyət göstərən hər kəsi neytrallaşdırmaq lazımdır"

"Azərbaycanda dini siyasət düzgün qurulmur və bu sfera açıq şəkildə İranın əlində cəmləşib"



**Tezliklə Azərbaycanda İran agenturasına qarşı "təmizləmə" prosesinə başlanacaq.**

**Bu barədə Ölkə.az etibarlı mənbəyə istinadən məlumat verib.**

Mənbə bildirib ki, bununla bağlı hazırlıqlar çoxdan başlanmalı idi. Lakin onların ağıllarının başlarına gəlmələri gözlənilirdi. Görünür ki, bunu anlamadılar və bağışlanmayacaqlar.

Bu yöndə geniş əməliyyat tədbirlərinin həyata keçiriləcəyi qeyd edilir.

**Məsələni "Şərq"ə dəyərləndirən Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu bildirib ki, bu gün bütün dünyada dövlətçilik təcrübəsi olan ölkələr, özlərinə təhdid gördüyü və maraqları toqquşduğu bütün qonşularına qarşı casusluq fəaliyyətində olur:** "Yəqin ki, İranın ölkəmizdə müəyyən adamları var. Amma Azərbaycanda olan İranpərəstlərin əksəriyyəti casusluq etmir. Sadəcə, ideoloji yaxınlığa görə onları dəstəkləyir. Bu məsələ bir az problemli olacaq. Çünki casusları vətənə xəyanətlə ittiham edib neytrallaşdırmaq olar. Lakin açıq şəkildə dini əqidəsini ifadə edən və bununla da İrana yaxınlıq edən adamları bu ad altında neytrallaşdırmaq olmaz. Mənə elə gəlir ki, hökumətimiz bu məsələdə çox gec tərpənib.

Vaxtilə mən bu təhlükə barəsində xəbərdarlıq edərək demişdim ki, Azərbaycanda dini siyasət düzgün qurulmur və bu sfera açıq şəkildə İranın əlində cəmləşib. Amma mənə ağlabatan bir cavab verə bilmədilər ki, nəyə görə belədir. Bu da aydındır ki, Azərbaycan keçmişdə Rusiya və İranın ortaq nəzarəti altında idi.

Rusiya hakimiyyətə, İran isə din xətti ilə insanlara nəzarət edirdi. Türkiyə bu bölgəyə ağırlığını qoyduqdan sonra həm Rusiya, həm də İranın maraqları təhdid altına düşdü.

Ona görə də rəsmi Tehran və Moskva gizli agenturalar yaratmağa başladı. Düşünürəm ki, Azərbaycan dövləti bu işi təcili başlatmalıdır. Ölkənin maraqlarına və qanunlarına zidd fəaliyyət göstərən hər kəsi neytrallaşdırmaq lazımdır".

**Nihat Müzəffər**

# Paşinyanın əmridir

## Zatulinin və Simonyanın bundan sonra erməni maraqlarından danışması ciddi qəbul olunmayacaq





"Baş nazirin bu addımı siyasi oriyentasiyanı Qərbə çevirməsi ilə bağlıdır"

**Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitə sədrinin birinci müavini Konstantin Zatulin Ermənistanda "persona non-qrata" elan edilib. Zatulinin Ermənistana girişi qadağan olunub.**

Məlumata görə, Zatulinin arzuolunmaz şəxs sayılmasının səbəbi onun öz müsahibələrində 44 günlük müharibədə məğlubiyyətə görə dəfələrlə Ermənistan hakimiyyətini sərt ittiham etməsi, Baş nazir Nikol Paşinyanı istefaya çağırması olub. Halbuki, Zatulin qatı ermənipərəst mövqeyi ilə tanınır. Qeyd edək ki, Zatulinin yaratdığı "Lazarev klubu" oktyabrın 28-də İrəvanda çoxlu sayda ekspert, siyasətçi, analitik və jurnalisti bir araya gətirəcək "Ermənistan-Rusiya münasibətlərinin tarixi keçmişi və bu günü" mövzusunda toplantı keçirməyi planlaşdırırdı. Duma üzvü özü də qadağaya münasibət bildirib. Deyib ki, bu qərar onun üçün gözlənilməz olub: "Ermənistan Respublikası Milli Assambleyasının Xarici Əlaqələr Departamentinin rəhbərindən məktub aldıq. Mənə dedilər ki, səfərim arzuolunmazdır, bəyanatlarım Ermənistan Respublikasına ziddir".

Məlumat üçün bildirək ki, "Russia Today" telekanalının və "Rossiya seqodnya" agentliyinin baş redaktoru, erməni əsilli jurnalist Marqarita Simonyanın da Ermənistana girişi qadağan edilib. Bu haqda Simonyan özünün teleqram kanalında yazıb: "Uzun illərdir ki, Ermənistana şiddətlə dəstək verən Konstantin Zatulinin Ermənistana girişi bu ölkənin hazırkı rəhbəri tərəfindən qadağan edilib. Yeri gəlmişkən, mənim də".

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistana girişi qadağan edilən rusiyalı deputatın bundan sonra erməni maraqlarından danışması ciddi qəbul olunmayacaq. Analoji hal Simonyana da aiddir:** "Bununla Ermənistan Rusiya Dövlət Dumasında və mediasında ciddi gücdən imtina etdi. Paşinyanın bu addımı siyasi oriyentasiyanı Qərbə çevirməsi ilə bağlıdır. Lakin niyə Zatulin və Simonyan? Zatulin Ermənistanın siyasi dairələri, xüsusilə Koçaryan-Sarkisyan komandası ilə yaxındır. Simonyanın rəhbərlik etdiyi media resursları Ermənistanın maraqlarını müdafiə etsə də, siyasi hakimiyyətə qarşı mövqedən çıxış edir və Nikolun rəqibləri üçün platforma rolunu oynayır. Paşinyan anlayır ki, Rusiya maraqlarına bu qədər qarşı çıxdığı vaxt adekvat addımlarla üzləşəcək. Bu addımlardan birinin də onun hakimiyyətdən devrilməsi ola biləcəyi istisna deyil. Bu təhlükəyə qarşı ilk tədbir də Kremlin emmisarlarını neytrallaşdırmaq oldu".

**İsmayıl Qocayev**



# Aksiyaların hədəfi var!

## Etiraz dalğalarının pərdə arxası müəyyən mərkəzlər tərəfindən idarə olunur

**İranda Məhsa Əmininin ölümündən sonra başlayan etirazlar səngimir.**

Bu dəfə Məhsa Əmininin ölümünün 40-cı günü insanların etiraz səhnəsinə çevrilib. Matəm mərasimə toplaşan etirazçı əhali "Diktatoru devirəcəyik, Məhsanın qisasını alacağıq!" şüarı səsləndiriblər. Qeyd edək ki, ölkənin şəriət təfsirinə əsaslanan qanunlarına görə, qadınlar öz bədənlərini göstərməmək üçün uzun, geniş paltar geyinməli və saçlarını örtməlidirlər. Məhsa Əmini əvvəl hicab qaydasını pozması iddiası ilə həbs olunub və sentyabrın 16-da vəfat edib. Ailəsi onun polis tərəfindən döyüldüyünü deyir. Polis ittihamları rədd edir.

**İrandakı iğtişaşları "Şərq"ə dəyərləndirən politoloq Məhəmməd Əsədullazadə bildirib ki, etiraz dalğalarının pərdəarxası müəyyən mərkəzlər tərəfindən idarə olunur:** "Aksiya İran rejiminin zəifləditməsinə xidmət göstərir. Kortəbii şəkildə davam edən etirazlar sistem daxilində fikir ayrılıqları ilə nəticələnəcək.

Kürd amilindən istifadə olunur. Kürdləri qabağa verərək, etiraz formalaşdırırlar. Əsas hədəf İrandakı rejimi devirmək və növbəti mərhələdə hakimiyyət dəyişikliyinə yol açmaqdır. Etirazların davam etməsi gözlənilir. Nümayişlər daha kəskin xarakter alacaq. İran rejimi prosesləri idarə etdiyini göstərməyə çalışır. Lakin bu qlobal proseslərin, yaxın Şərqdəki yeni geosiyasi nizamının nəticəsidir".

**Aygün Tahir**

# Vətən savaşı örnək gənclik yetişdirdi

## Vətəni sevməyin ən gözəl nümunəsini qəhrəman igidlərimizin timsalında gördük

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi;**



**Azərbaycanda gənc nəslin milli köklərimizə, mənəvi dəyərlərimizə, tarixdən gələn ənənələrimizə bağlılıq, Vətənə sevgi, vətənə, torpağa bağlılıq, sadiqlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması istiqamətində müxtəlif sahələrdə davamlı addımlar atılır. Gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi mühüm prinsiplərdən birini təşkil edir və dövlət üçün prioritet olan məsələlərdən biridir.**

44 günlük Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatmasını təmin edən mühüm amillərdən biri də məhz gənclər arasında vətənpərvərlik ruhunun aşılanması ilə bağlı uğurlu işin aparılmasıdır. Bu gün gənc nəslin düzgün yetişdirilməsi, onlarda vətənpərvərlik ruhunun inkişaf etdirilməsi, milli kimliyin aşılanması kimi məsələlər ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Gənclərə yüksək standartlara uyğun təhsil almaq, beynəlxalq yarışlarda iştirak etmək, savadı, biliyi, bacarığı olan gənclərə dövlət orqanlarında müvafiq vəzifələrdə çalışmaq imkanı yaradılır. Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanda vətənpərvər, Vətən yolunda daim canını belə qurban verməyə hazır olan gənc nəsil yetişib. Azərbaycanda gənclər siyasəti daim dövlət siyasətinin əsas istiqamətlərindən biri olub. Gənclərin vətənpərvər ruhda yetişdirilməsinə, savadlı, təhsilli gəncliyin formalaşmasına daim böyük diqqət ayrılıb. Azərbaycan gənclərinin İnkişaf Strategiyası, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramları, Gənclər Fondunun yaradılması və digər bu kimi tədbirlər gənclərimizin inkişafı və vətənpərvər ruhda yetişdirilməsi istiqamətində çox önəmli addımlar idi. Azərbaycanın gənclər siyasəti dünya miqyasında bir nümunəyə çevrilib. Aparılan bu nümunəvi gənclər siyasəti öz bəhrəsini layiqincə verməkdədir. Vətənini, dövlətini sevən gənclik bizim ən böyük və əvəzolunmaz sərvətimizdir. Təhsilli, vətənpərvər, dövlətə bağlı, sağlam düşüncəli gənclərin yetişdirilməsi ölkəmiz üçün böyük önəm daşıyır. Çünki məhz gənclər bu ölkənin gələcəyidir. Çünki gələcəkdə gənclərimiz bu dövlətə xidmət edəcəklər, Vətənimizi qoruyacaqlar. Ölkəmizi xoşbəxt gələcəyə aparan da məhz gənclər olacaq. Azərbaycanda könüllülük institutunun formalaşdırılmasını da qeyd etmək lazımdır. Bu, məhz dövlət başçımızın təşəbbüsü ilə yaradılmış "ASAN xidmət"in fəaliyyətə başlamasından sonra, ilk dəfə "ASAN könüllüləri"nin yaradılması ilə başladı və bu gün də bir çox digər dövlət qurumlarında uğurla davam etdirilir. Könüllülük gənclər arasında istedadlı və yaradıcı gənclərin aşkar edilməsi və onların qabiliyyətlərinin inkişafına, gələcəkdə gənclərin işlə təmin olunmasına xidmət edən bir institutdur. Eyni zamanda, gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmasına xidmət edir. Gənclərə diqqət və qayğının məntiqi nəticəsi idi ki, "Gənclər siyasəti haqqında" qanun qəbul edilib və qanunda gənclərə hərtərəfli dəstək əksini tapıb. Sənəddə gənclər siyasətinin məqsəd və prinsipləri, gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı, onların sağlamlığının qorunması və fiziki inkişafı, məşğulluğunun təmin edilməsi, gənc ailələrə, gənclər təşkilatlarına dövlət yardımı, gənclər siyasətinin həyata keçirilməsinin maddi və maliyyə təminatı ilə bağlı maddələrə bir sıra vacib əlavələr edilib. Eyni zamanda, aztəminatlı gənc ailələrin sosial müdafiəsi, onların mənzil təminatının yaxşılaşdırılması və bu məqsədlə güzəştlərin tətbiq olunması, gənc alim və tədqiqatçıların elmi fəaliyyətinin dəstəklənməsi, sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərin təhsil problemlərinin həlli və asudə vaxtlarının səmərəli keçirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi məsələləri qanunda əks olunub. Təqdirəlayiq haldır ki, bu gün cəmiyyətin ən fəal hissəsi olan gənclər respublikamızın sosial-iqtisadi və ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Onlar elm, təhsil, mədəniyyət, idman və hərbi quruculuq sahəsində uğurlar qazanaraq Azərbaycanın dünyada tanıdılmasına, Vətənimizin müdafiəsinə, ərazi bütövlüyümüz və dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə layiqli töhfələrini verirlər. Əminliklə qeyd edə bilərik ki, gənclərin böyük əksəriyyəti dövlət tərəfindən yaradılan şəraitdən faydalanıb və inkişaf edib. Gənclərin mənəvi inkişafına ən böyük nümunə onların vətənpərvər ruhda böyüməsidir.



**"İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlı "Şərq"ə deyib ki, illər boyu həyata keçirilən gənclər siyasətinin nəticəsini 44 günlük Vətən müharibəsi dövründə aydın şəkildə görə bildik. Onun sözlərinə görə, tam məsuliyyətlə demək olar ki, Vətən savaşında Azərbaycan gəncliyi bu müqəddəs sınaqdan üzü ağ çıxmağı bacardı: "Ön cəbhədə Azərbaycan gəncliyinin** nümayəndəsi olan əsgərlər düşmənə meydan oxudular, Azərbaycanın tarixi torpaqlarını geri alaraq tarixi ədaləti bərpa etdilər. Həmçinin, arxa cəbhədə də Azərbaycan gəncliyinin nümayəndələri informasiya savaşının döyüşçüləri kimi düşmənlə mübarizə apardılar, söz cəbhəsini tərk etmədilər. Gənclərimiz düşmənin yalan maşınının, dezinformasiyalarının qarşısının alınması, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində çox yaxından iştirak etdilər. Şübhəsiz, bu, ilk növbədə Azərbaycan gəncliyinin milli kimliyimizə, milli davamıza münasibətinin təcəssümü idi. Digər yandan isə ölkəmizdə illərdir gənclər arasında aparılan ideoloji işin, Azərbaycan gənclərinə konkret strateji xətt üzrə həyata keçirilən hərbi və milli vətənpərvərliyin məntiqi nəticəsi idi".

Birlik rəhbəri deyib ki, həqiqətən də Azərbaycan gəncliyi 44 günlük Vətən savaşında öz üzərinə düşən vəzifələrin, məsuliyyətin öhdəsindən layiqincə gəlməyi bacardı: "Həm hərbi müstəvidə, həm informasiya cəbhəsində tarix yazdı. Bu gün müharibə bitsə də, torpaqlarımızı işğaldan azad etsək də, reallıq odur ki, hələ də düşmənin hərbi və informasiya müstəvisində təxribatları bitməyib. Azərbaycan dövlətinin müstəqil xarici siyasəti bir çox kənar gücləri, bədnam qonşularımızı narahat etməkdədir. O baxımdan hazırda Azərbaycanın qarşısında, o cümlədən gənclərimizin qarşısında əvvəlki dövrlərdən daha artıq və mühüm vəzifələr dayanır. Azərbaycan gəncliyi müharibədən qabaqkı dövrlərlə müqayisədə daha ayıq-sayıq olmalıdır. Gənclərimizin potensialı çox yüksəkdir. Əgər 44 günlük savaşa kimi vətənpərvərlik haqqında daha çox ümumi sözlərlə danışırdıqsa, müharibədən sonra milli mənlik şüuru və Vətən sevgisi barədə konkret faktlarla danışmağa başladıq. Çünki müharibədə 3 minə yaxın şəhidimiz və on minlərlə qazimiz oldu. Vətəni sevməyin ən gözəl nümunəsini qəhrəman igidlərimizin timsalında gördük. İndi bizim vəzifəmiz bu örnəyi indiki və gələcək nəsillərə aşılamaqdır, olduğu kimi çatdırmaqdır. Uğurlarımız bizi arxayın etməməlidir. Mübarizəmiz ön cəbhədə də, arxa cəbhədə də davam edir. Gənclərimiz dil bilgisini artırmalı, sosial şəbəkələrdə daha fəal olmalıdır".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Qarabağda heç bir erməni silahlı dəstəsi qala bilməz

## Bu razılaşmaya nə Rusiya, nə də Ermənistan tərəfi əməl edir

**Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiya ilə Azərbaycan liderləri - Vladimir Putin və İlham Əliyevlə görüşdə iştirak etmək üçün oktyabrın 31-də Soçiyə gedəcək.**



Bunu Ermənistan parlamentinin sədri Alen Simonyan jurnalistlərə açıqlamasında deyib.

O bildirib: "Bəli, məndə olan məlumata görə, baş nazir Soçiyə gedəcək. Görüşün baş tutacağına inanıram".

Xatırladaq ki, Rusiya dövlət başçısı Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanı Rusiyaya üçtərəfli görüşə dəvət edib.

**Görüşün detallarını "Şərq"ə şərh edən siyasi şərhçi Turab Rzayev söyləyib ki, Azərbaycanın bu görüşdən çox böyük gözləntiləri var:** "İlk növbədə rəsmi Bakı artıq bir neçə məsələ ilə bağlı real addımın atılmasını istəyir. Bunlar sərhədlərin delimitasiyası və demarkasiyası, Zəngəzur dəhlizinin açılması məsələsidir. Bu iki məsələ Brüsselin vasitəçiliyi ilə dəfələrlə masaya yatırılıb və hər dəfəsində də Rusiya buna mane olmağa çalışıb. Bununla Kreml Avropa İttifaqını sülh prosesinə mane olmaqda və təxribat törətməkdə ittiham edərək, yeganə real vasitəçinin Rusiya olduğuna eyham vurub. Əgər Moskva bu dediklərini həqiqətən də isbat etmək istəyirsə, o zaman ən azından Zəngəzur dəhlizi və sərhədlərin delimitasiyası məsələsini həll etməlidir. Bunu etməklə o, göstərə bilər ki, iki il ərzində bu danışıqlardan heç olmasa bir dənə real nəticə əldə olundu".

Ekspert qeyd edib ki, Bakını narahat edən digər bir məsələ isə Qarabağda erməni silahlı birləşmələrinin qalmasıdır: "Çünki sülh bəyanatında açıq şəkildə bildirilir ki, Qarabağda heç bir erməni silahlı dəstəsi qala bilməz. Bununla bağlı dəfələrlə məsələ qaldırılmasına baxmayaraq, erməni hərbi birləşmələri Qarabağda aktiv şəkildə qalmağa davam edir. Ancaq Rusiyanın bu prosesi uzadacağı və Qarabağdakı erməni yaraqlılarını tərk-silah etməyəcəyi gözləniləndir. Görüşdən əvvəl Azərbaycana qarşı media kampaniyası ilə təzyiq edən Moskva, Azərbaycan və Ermənistanın Vaşinqton vasitəsilə anlaşdığını iddia edir. Əslində bununla Paşinyanı erməni maraqlarını satmaqla günahlandırır. Bu görüş Putinin həm Azərbaycan, həm də Ermənistanın üzərində təzyiq mexanizmi qurması üçün vasitə olacaq".

**Nihat Müzəffər**

# Milli Qəhrəman Maşallah Abdullayev dəfn edilib

**Azərbaycanın Milli Qəhrəmanı Maşallah Abdullayev vəfat edib. Onun onkoloji xəstəlikdən 72 yaşında dünyasını dəyişdiyi bildirilir.**



Maşallah Abdullayev Goranboy şəhər qəbiristanlığında torpağa tapşırılıb.

Dəfn mərasimində ictimaiyyət nümayəndələri, mərhumun döyüş yoldaşları, Vətən müharibəsi iştirakçıları, rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak edib.

Milli Qəhrəmanın dəfn mərasimi hərbi orkestrin müşayiəti ilə keçirilib, yaylım atəşi açılıb.

Qeyd edək ki, Abdullayev Maşallah Babakişi oğlu 27 may 1950-ci ildə Qasım İsmayılov (indiki Goranboy) rayonunun Kəpənəkçi kəndində doğulub. Birinci Qarabağ müharibəsində könüllülərdən ibarət dəstə yaradaraq iştirak edib. 1992-ci ildə briqada komandirinin müavini vəzifəsinə təyin olunub. Goranboy və Ağdərənin erməni işğalçılarından təmizlənməsində şücaət göstərib. 1992-ci ildə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Maşallah Abdullayev 1992-1993-cü illərdə Goranboy rayon İcra Hakimiyyətinin başçısı kimi çalışıb. Azərbaycan Respublika Ali Sovetinin deputatı olub.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Şurası Goranboy Rayon Şurasının sədri kimi fəaliyyət göstərib.

# Yasamalda su borusu partlayıb

## Bu hələ harasıdır, zamanla belə hadisələri çox görəcəyik

"Şəhərsalma, küçə və prospektlər, binaların tikilməsi planlı olmalı, qurumlar bir-biri ilə koordinasiya qurmalı idi"





**Yeni Yasamal massivinin Əsəd Əhmədov küçəsindən keçən magistral su xətti partlayıb. Qəza baş verən borunun ətrafını su basıb, avtomobillərin gedişində çətinlik yaranıb. Aidiyyəti qurumlar tərəfindən qəzanın fəsadlarının aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülüb.**

"Paytaxtın Yeni Yasamal massivinin Əsəd Əhmədov küçəsindən keçən magistral su xəttinin partlaması ilə əlaqədar olaraq yolun hərəkət istiqamətinin çökməsi, həmin küçə və prospektin digər paralel küçə və prospektlərlə hərəkət istiqamətlərində yolların müvəqqəti məhdudlaşdırılması tərəfimizdən həyata keçirilib, hərəkətin tam bərpa olunması aidiyyəti qurumların rəyinə əsasən təmin olunacaq". Bunu Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli bildirib. "Yol polisi əməkdaşları hazırda ərazidə xidmətlərini aparırlar ki, hərəkət normal şəkildə tənzimlənsin. Vətəndaşlarımızdan, xüsusilə sürücülərimizdən xahiş edirik ki, hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə müvəqqəti hərəkət istiqamətlərinin dəyişdirilməsini nəzərə alaraq bu ərazidən istifadəni maksimum məhdudlaşdırsınlar" - deyə o, vurğulayıb.

"Azərsu" ASC-nin operativ idarəetmə şöbəsinin rəisi Yaşar Bəşirovun sözlərinə görə, gün ərzində suyun verilməsində heç bir çətinlik yaranmayacaq: "Hadisə səhər saatlarında Əsəd Əhmədov küçəsində baş verib. Təbii qəza hadisəsidir. Qəza briqadaları cəlb olunub. Qəzanın aradan qaldırılması üçün tədbirlər görülür. Heç bir çətinlik yoxdur. Kifayət qədər su anbarımız var. Qəza magistral kəmərdə olub. Bu su kəmərindən əhali birbaşa istifadə etmir. Xətt 2010-cu ildə çəkilib. Suyun verilməsində heç bir çətinlik yoxdur. Kifayət qədər suyumuz var. Heç bir şikayət yoxdur".



Yasamalda magistral su xəttinin partladığı ərazidə yerləşən fitnes mərkəzinin sahibi Mahmud Ələkbərov deyib ki, sığorta şirkətinə müraciət etsə də, hələ ki maraqlanan yoxdur: "Səhər saatlarında, 08:20-də zalda idim. Məndən başqa heç kəs yox idi. Suyun səsinə çölə çıxdım. Su binanın içinə doldu. Özümü itirdim. Ancaq özüm çıxa bildim. Heç nəyi xilas edə bilmədim. Təkcə qaçış aparatının qiyməti 10 000 manatdır. 200 000 manata yaxın ziyan dəyib".

Sahibkar Mustafa Mirzəyev isə bildirib ki, ona məxsus iki obyekt yararsız hala düşüb. Onun sözlərinə görə, sığorta şirkətindən hələ ki heç bir xəbər yoxdur: "Hadisədən səhər saatlarında xəbərim oldu. Obyektlər suyun içində idi. Yuxarı tərəfdən boru partladığına görə bütün su bura axıb. Obyektlərimdən birində əl işi olan paltarlar var. Hamısı yararsız hala düşüb. Digər obyektim SPA mərkəzi idi. Oradakı avadanlıqlara da ciddi ziyan dəyib".

**"Sağlam Cəmiyyət" Hərəkatının rəhbəri Elçin Bayramlının "Şərq"ə açıqlamasında bildirib ki, bu problemin əsas səbəbkarı başda Bakı Şəhər İcra Hakimiyyəti olmaqla "Azərsu", Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və "Azəryol Tikinti"dir:** "Şəhərsalma, küçə və prospektlər, binaların tikilməsi planlı olmalı, qurumlar bir-biri ilə koordinasiya qurmalı idi. Yol salınmazdan əvvəl yeraltı su xətlərinin yeri, istismar müddəti, yüklənmə norması öyrənilməli idi. Şəhəri betonlaşdırıb, hər addımbaşı çoxmərtəbəli binalar tikilib. Şəhər o qədər yüklənib ki, əvvəl çəkilən boru xətləri binalarda yaşayan əhalinin su təminatını ödəyə bilmir. Bunun qarşısını almaq üçün suyun təzyiqi artırılır və yarıməsrlik su boruları yüksək təzyiqə davam gətirə bilməyib partlayıb. Bu hələ harasıdır. Zamanla biz bu cür partlayışları çox görəcəyik. Sadəcə su xətləri deyil, bütün kommunal sistemlərin sıradan çıxması ciddi fəsadlara səbəb olacaq. İllər əvvəl bəlli bir əhali üçün nəzərdə tutulan kommunal təchizat sistemi bu şəhərin öhdəsindən gələ bilmir. Yeni çoxmənzilli binalar inşa edilərkən, mütləqdir ki, su sistemləri də ona uyğun hesablansın. Təəssüflər olsun ki, bizdə hələ də bəzi ərazilərdə çoxmənzilli yeni binalar inşa edilərkən, kanalizasiya və su xətlərinə qoşulma köhnə olan xətlərin üzərindən həyata keçirilir".

Həll yollarına gəldikdə isə ekspert deyib ki, artıq çox gecdir. Bu cür təhlükələr əvvəldən nəzərə alınmalı və qabaqlayıcı addımlar atılmalı idi: "Praktik olaraq bundan sonra baş verəcək problemlərin qarşısını almaq mümkün deyil. Şəhərin infrastrukturunu düzgün sistemləşdirmək üçün Bakı şəhəri sökülüb təzədən tikilməlidir. Şəhərin bütün kommunal xətləri hədsiz yüklənib, binalar xaotik şəkildə, necə gəldi tikilib. Hansısa magistral xətdən keçən su borusunu dəyişməklə problemi həll etmək olmur. Fundamental tədbirlər keçirilməlidir. Bunun üçün də milyardlarla vəsait və uzun zaman lazımdır. İlk növbədə isə Bakını bu hala salan sabiq və hazırkı məmurlar məsuliyyətə cəlb olunaraq ağır cəzalandırılmalı, bütün əmlakları müsadirə olunmalıdır".

**Şəymən Bayramova**

# İnformasiya "savaşı"nı uşaqlar üzərində aparmaq olmaz




**Seymur Verdizadə:** "Zorakılığa və ya hansısa xoşagəlməz hadisəyə məruz qalan uşaqlar cəmiyyətə şərti adlarla təqdim olunmalıdır"

**Lalə Mehralı:** "Cinsi zorakılığa məruz qalmış, intihar etmiş uşaqlar barədə məqalə dərc edəndə, uşaqların şəklini yayımlayırlar"

**Daxili İşlər Nazirliyi (DİN) sosial media istifadəçilərinə və jurnalistlərə müraciət edib. DİN Mətbuat xidmətinin şöbə rəisi Elşad Hacıyev azyaşlılarla bağlı zorakılıq məzmunlu məlumatları, görüntüləri yaymamağa çağırıb: "Bu, tövsiyədir, xahişdir. Anlaşılandır ki, bu məlumatları yaymaqda məqsədiniz tədbirlərin görülməsidir.**

Hər bir fakt üzrə Daxili İşlər Nazirliyi tərəfindən bütün zəruri tədbirlər görülür, daxil olan məlumatlara çevik reaksiya verilir. Hansısa sual varsa bunu açıq platformada yox, şəxsidə soruşub aydınlaşdıra bilərsiniz.

DİN-in sosial şəbəkə seqmentləri və zəng mərkəzləri fasiləsiz fəaliyyət göstərir. Nazirliyin növbətçi hissələrinə daxil olan bütün məlumatların mətbuat xidmətinə fasiləsiz inteqarasiyası təmin olunur".

Qeyd edək ki, uşaqlarla bağlı problem hər zaman cəmiyyətin aktual problemlərindən olub və xüsusi diqqət tələb edib. Uşaqlarla bağlı yayılan məlumatlarda medianın necə davranmalı olmasını tövsiyə edən yetərli qədər etik qaydalar formalaşıb. Media zorlama, oğurluq, boşanma, narkotikdən istifadə, intihar, xəsarət yetirmə, öldürmə və başqa durumlarda zərərçəkmiş, təqsirli və ya başqa qismdə cəlb olunan azyaşlıları topluma necə təqdim etməkdə zaman-zaman axsadıqlarını büruzə verirlər. Adətən, məsələnin ciddiliyi nəzərə alınmadan, etik çərçivələr gözlənilmədən onların kimliyi, görüntüləri efirə verilir. DİN-in müraciəti də məhz bu problemlərin qarşısının alınmasına yönəlib.

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə də "Şərq"ə açıqlamasında təəssüflə qeyd edib ki, uşaqların mənəvi-psixoloji durumuna mənfi təsir göstərən xəbərlərin yayılması intensiv hal alıb. KİV-lər arasındakı rəqabət peşəkarlığı arxa plana keçirib:** "Əksər KİV-lər uşaqlarla bağlı xəbərlərin yayılmasıyla bağlı özlərinə məhdudiyyət tətbiq etmirlər. Vəziyyət o həddə çatıb ki, bəzi KİV-lər hətta təcavüzə məruz qalmış azyaşlıların adlarını açıq yazmaqdan, əllərinə düşdüyü təqdirdə fotolarını yaymaqdan belə çəkinmirlər. İnformasiya "savaşında" heç kim rəqibə uduzmaq istəmir. Qeyri-sağlam rəqabət mühiti cəmiyyətin müxtəlif kateqoriyalarına aid olan insanların, o cümlədən, uşaqların zərbələrə məruz qalmasına səbəb olub". Azərbaycanda kriminal xəbərlərin hazırlanması ilə bağlı ciddi problem olduğunu vurğulayan S.Verdizadə bu sahədə ixtisaslaşmanın zəif getdiyini qeyd edib: "Azyaşlılarla bağlı zorakılıq məzmunlu məlumatları, görüntüləri özündə əks etdirən hadisələrin işıqlandırılması zamanı media nümayəndələri bir sıra yanlışlıqlara yol verirlər. Qaydalara əsasən uşaqlar haqqında məlumatlar onların özünün, valideynlərinin və ya himayəsində olduqları şəxslərin razılığı əsasında dərc olunmalıdır. Amma elə məsələlər var ki, hətta valideynlərin razılığı olsa belə, qanunvericilikdə uşaqların adlarının çəkilməsinə icazə verilmir. Buraya özündən asılı olmayaraq cinayət əməlinə cəlb olunmuş və ya başına açıqlanması məqbul olmayan hadisə gələn uşaqların mətbuatda adının hallandırılması məsələsi daxildir. Əks təqdirdə, uşaq haqqında pis reputasiya formalaşır və gələcəkdə ona zərər verə biləcək, onu cəmiyyətdə "gözü kölgəli" edəcək informasiyalar əslində data-bazalarda qorunub saxlanılır və istənilən şəxs istədiyi zaman həmin məlumatı əldə edə bilir. Buna görə də zorakılığa və ya hansısa xoşagəlməz hadisəyə məruz qalan uşaqlar cəmiyyətə şərti adlarla təqdim olunmalıdır. Amma uşaqların itkin düşməsi və ya oğurlanması haqqında informasiyalarda onların adını da, şəkillərini də tam şəkildə yerləşdirmək olar".

**Sosioloq Lalə Mehralı isə hesab edir ki, əksər vaxtlarda mətbuat uşaqları müdafiə etməkdən daha çox onlara zərər verir, hüquqlarını tapdayır:** "Məsələn, yetkinlik yaşına çatmayan uşaqlar haqqında material işləyəndə, habelə cinsi zorakılığa məruz qalmış, intihar etmiş uşaqlar barədə məqalə dərc edəndə, uşaqların şəklini yayımlayırlar. Bu, yolverilməzdir, yayımlasa belə, üzü görünməməlidir. Mətbuat kimsəsizlərin, çarəsizlərin silahıdır, zərərsiz, amma kəsərli silah. Uşaqlar bu siyahıda birincidir, onların müdafiəyə daha çox ehtiyacı var, istismara məruz qalan, döyülən, söyülən, zorakılıq görən uşaqları çox vaxt mətbuat aşkarlayır, lazımi orqanlara xəbər verir".

**Şəymən**

## Bakıda ana uşağı yatırdıb özünü asdı

Yaxınları onun heç bir probleminin olmadığını deyiblər



**Bakıda daha bir gənc qadın intihar edib.**

"Medicina" xəbər verir ki, hadisə Suraxanı rayonu Qaraçuxur qəsəbəsi Etibar Bəkirli küçəsində qeydə alınıb.

35 yaşlı Aynurə Babayeva yaşadığı evdə özünü asıb.

Mərhum bir uşaq anası olub. 14 il əvvəl qadının həyat yoldaşı dünyasını dəyişib. İlkin məlumata görə, qadın gecə saatlarında, yeniyetmə övladı yatdıqdan sonra özünü öldürüb.

A.Babayevanın özünü hansı səbəbdən öldürdüyü hələlik bilinmir. Yaxınları onun heç bir probleminin olmadığını deyiblər.

## Ötən il hər üçüncü nikah boşanma ilə nəticələnib

Bu isə 1990-cı ildən bəri ən yüksək göstəricidir



**"2021-ci ildə orta hesabla bağlanan hər 3-cü nikah boşanma ilə nəticələnib. Halbuki 10 il öncə hər 8-ci nikah uğursuzluğa düçar olurdu".**

Bu fakt Bakı Araşdırmalar İnstitutunun Dövlət Statistika Komitəsinin hesabatı əsasında hazırladığı infoqrafikada yer alıb.

Məlumata əsasən, 2021-ci ildə əhalinin hər 1000 nəfərinə düşən boşanmaların sayı 1,7 olub:

"2019-cu ildə də bu göstərici qeydə alınmışdı. Bu isə 1990-cı ildən bəri ən yüksək göstəricidir. Nikaha gəlincə, əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 10 il əvvəlki dövrlə müqayisədə azalaraq 9,7-dən 5,6-ya düşüb".

*Qeyd olunur ki, kişilərdə boşanma halları daha çox 30-34 yaş (25,9%), qadınlarda isə 25-29 yaş (24,8%) dövründə baş verib.*

# Kameralara diqqət!

"Yol-nəqliyyat hadisələrində "BakuBUS"lar hamını ötüb keçib"



**Bakıda sərnişin avtobusu ilə minik avtomobili toqquşub.**

**Hadisə Sahil qəsəbəsində qeydə alınıb.**

Belə ki, 164 nömrəli müntəzəm xətt üzrə hərəkətdə olan sərnişin avtobusu ilə "Mercedes-Benz" markalı minik avtomobili toqquşub.

İlkin məlumata görə, hadisə nəticəsində ölən və xəsarət alan olmayıb. Hər iki nəqliyyat vasitəsinə maddi ziyan dəyib.

Son zamanlarda isə ümumiyyətlə qəza şəraiti yaradan və sərnişinlərin həyatını təhlükəyə atan avtobus sürücülərinin sayı çoxalıb.

Bəs bunun səbəbi nədir və qarşısını almaq üçün hansı addımlar atılmalıdır?

Məsələyə münasibət bildirən nəqliyyat üzrə ekspert Elməddin Muradlı "Şərq"ə açıqlamasında vurğulayıb ki, avtobus sürücüləri ilə bağlı zaman-zaman profilaktik tədbirlər həyata keçirilməli, onların psixoloji durumu və sürücülük vərdişləri yoxlanılmalıdır: "Bakı Nəqliyyat Agentliyi yarandığı ilk illərdə təlimlər keçirsə də, artıq bu təlimlərə yer verilmir. Yalnız "BakuBUS"larda və bir neçə özəl şirkətdə bu tədbirlər həyata keçirilir. Son vaxtlar isə yol hərəkəti qaydalarının pozulmasında və nəqliyyat hadisələrində "BakuBUS"ların sürücülərinin hamını ötüb keçdiyini görürük. Ona görə də bu məsələ ilə bağlı nəzarət tədbirləri ciddi şəkildə gücləndirilməli və yollarda qayda pozan avtobus sürücüləri cəzalandırılmalıdır. Nəzarət tədbirləri isə ya kameralar vasitəsilə, ya da monitorinqlər şəklində həyata keçirilə bilər. Yəni belə halların qarşısını almaq üçün ciddi nəzarət mexanizminə ehtiyac var. Çünki biz görürük ki, ilk illərdə keçirilən təlimlər effekt verdi. Sonrakı fasilə isə artıq sürücüləri qayda pozmağa və kobud davranmağa sövq edir".

**Nihat Müzəffər**

Şərq Müstəqil ictimai-siyasi qəzet
27 oktyabr 2022-ci il (cümə axşamı)





Həmayil Əhmədqızı

## Dönüb gəlin yad ellərdən

Bağ bağçamı şaxta vurdu,
Güllərim saralıb-soldu.
Gözlərimiz yolda qaldı,
Niyə qaldın yad ellərdə?

Sözündə yalan olmazdı,
Əhdinə xilaf çıxmazdın,
Yad ellərə sığınmazdın,
Niyə qaldın yad ellərdə?

Yad el sənə elin olmaz,
Yad torpağı vətən olmaz.
Məzarını qazan olmaz,
Niyə qaldın yad ellərdə?

Ocaq yanır, istisi yox,
Sənsiz evin nəşəsi yox.
Başımızın qovğası çox,
Niyə qaldın yad ellərdə?

Boynu bükük balan qalıb,
Köçü hazır anan qalıb.
Yarı yolda yarın qalıb,
Niyə qaldın yad ellərdə?

De, səni kimdir saxlayan,
Yoluna daş-kəsək yığan,
Sənə bizdən əziz olan?
Niyə qaldın yad ellərdə?

Yaşamağıma səbəb idin,
Ürəyimə təpər idin,
Bu dünyama bəzək idin,
Niyə qaldın yad ellərdə?

Vətənimin oğulları,
Perik-perik olanları,
"Sevdalanıb" qalanları,
Dönüb gəlin yad ellərdən.

## Olanlar kimə oldu?!

İllər boyu susdu vətən,
Zaman-zaman çəkdi vətən.
Haqsızlığa dözdü vətən.
İçi yandı korun-korun,
Alışıb odlandı vətən,
Axırda dözmədi vətən.
Tufan oldu dəryalarda,
Od püskürdü səhralarda.
Eşit indi, kar olanlar,
İki gözü kor olanlar.
Ədaləti itirənlər,
Haqqı əzib tapdayanlar,
Vətənim sizə hayqırır:

Tən ortadan bölünən,
Tikə-tikə paylanan,
Yarısı yada qalan,
Mənim yurd-yuvam oldu.

Aldıqca, hey, aldılar.
İstədikcə verdilər.
Gözləri doymayanlar
Mənim düşmənim oldu.

Yerdən göyə sovrulan
Yandırılan, yaxılan,
Qovurğatək qovrulan
Mənim torpağım oldu.

Raketlərin səsindən,
Analar naləsindən
Yatmayıb sərsəm olan
Körpələr mənim oldu.

Qayasına, daşına,
Dərəsinə, düzünə
Şəhid qanı çilənən
Mənim dağlarım oldu.

Su yerinə qan içən,
Gözləri qan ağlayan,
Quruyub həşəm olan,
Mənim güllərim oldu.

Yaşıl donu soyunan,
Atəşdən köynək geyən,
Yandırılıb kül olan
Meşələr mənim oldu.

Yurd-yuvası dağılan,
Sərvəti talan olan,
Dağ çəkilib dağlanan
O sinə mənim oldu.

Yarası sağalmayan,
Zoqqultusu keçməyən,
Hey qanayan, qanayan
Mənim ürəyim oldu.

Haqlı ikən haqsız olan,
Şər-böhtanlar atılan,
Haqq yolundan dönməyən,
O, mənim xalqım oldu.

Köməyi Allahından,
Gücü el-obasından,
Heyfini düşmənindən
Alan millətim oldu.

Heç kəsə əyilməyən,
Kimsəyə əl açmayan,
Öz gücünə güvənən
Mənim dövlətim oldu.

Bilməyənlər qoy bilsin,
Eşitməyən eşitsin.
Vicdanları söyləsin,
Olanlar kimə oldu?!

## Ömrün fəsli necə keçdi, bilmədim

Mən ömrümün hər fəslini yaşadım.
Yaz-yay keçib, payız gəldi, qalmadı,
Bu fəsillər necə keçdi, bilmədim.
Qış ömrümə lövbər saldı, getmədi.

Təbiətin hər bir fəsli gözəldir,
Hər birisi təbiətə bəzəkdir,
Ömrün fəsli axı niyə belədir?
Sevinci az, nəşəsi az, dərdi çox.

Bu dünyanın ədaləti hardadır?
Axtarıram, tapammıram, soruşam.
Yaz tez gəldi, tez də getdi, qalmadı.
Qış ömürlük bizlə qaldı, nədəndir?

## Anamı istəyirəm

Anamı istəyirəm,
Yeddi övlad böyüdən,
Yeddi yerə bölünən,
Bölündükcə güclənən
Anamı istəyirəm.

Anamı istəyirəm,
Yolumu itirəndə,
Çaşıb yolda qalanda,
Tez qolumdan yapışıb
Yolumu göstərəydi.

Anamı istəyirəm,
Kələfim dolaşanda,
Çözələyib açaydı,
Yumaq yumaqlayanda
Məni, hey danlayaydı.

Anamı istəyirəm,
Dərd üstümə gələndə,
Yandıranda, yaxanda,
O odu söndürəydi,
Mənə hayan olaydı.

Anamı istəyirəm,
Kimdənsə inciyəndə,
Uşaq kimi küsəndə,
Axtaraydım, tapaydım,
Qoynuna sığınaydım.

Anamı istəyirəm,
Bu dünyadan köçəndə
Heç kəs ağlamayaydı.
Anam layla çalaydı,
Mən də rahat yataydım.

# Dövlət sifarişli kino çəkilişlərində yeyintilər aşkarlanıb

"İndi nə edək, kino çəkməyək ki, Hesablama Palatası gəlib qüsurlar tapmasın?"

**Hesablama Palatası tərəfindən dövlət sifarişi ilə filmlərin çəkilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsi ilə bağlı yoxlama aparılıb. Palatanın araşdırması nəticəsində dövlət sifarişi ilə çəkilən filmlərlə bağlı maliyyə nöqsanları açıqlanıb.**

Hesabata görə, dövlət sifarişi ilə çəkiləcək filmlərin seçim prosedurlarının təkmil olmaması filmlərin çəkilməsi üçün tələb olunan vəsaitlərin əsaslı şəkildə proqnozlaşdırılmaması ilə nəticələnib.

Bildirilib ki, nəticədə bəzi hallarda filmlərin 1 vahidinin nəzərdə tutulmuş dəyəri ilə faktiki icra edilmiş göstərici arasında nəzərəçarpacaq fərqlər formalaşıb. Əhatə olunmuş illərdə bir neçə istiqamət üzrə vəsait nəzərdə tutulmadığı halda, bu məqsədlə vəsait icra edilib, eləcə də il ərzində planlaşdırılmış və həyata keçirilmiş istiqamətlər üzrə fərqlər mövcud olub, filmlərin dəyərinin müəyyənləşdirilməsi ilə bağlı fəaliyyətin düzgün təşkil edilməməsi il ərzində, yuxarıda qeyd edilənlərlə yanaşı, ayrı-ayrı istiqamətlər çərçivəsində də dəyişikliklərlə nəticələnib. Belə ki, vahidin dəyəri fərqli olan filmlərin sayı icra zamanı bəzi hallarda artırılıb, bəzi hallarda isə azaldılıb. Bu hal 2020-2021-ci illərdə bədii və sənədli filmlər üzrə müşahidə edilib.

2021-ci ildə bəzi hallarda, məsələn, tammetrajlı sənədli filmlər və cizgi filmləri üzrə say müəyyən olunmadan vəsait proqnozlaşdırılması kifayət qədər böyük həcmdə ehtiyat vəsaitin proqnozlaşdırılması ilə icra prosesində həmin vəsaitin digər istiqamətlərə yönəldildiyini qeyd etmək imkanı verir. Ümumilikdə, proqnoz və icra göstəriciləri arasında fərq işin 1 vahidinin dəyəri üzrə, xüsusilə 2020-ci ildə müşahidə olunur. Məsələn, həmin ildə birinin dəyəri 800,0 min manat olan 2 tammetrajlı filmin çəkilişi nəzərdə tutulsa da, ilin sonuna 1 film çəkilişinə 214,2 min manat və ya nəzərdə tutulmuş dəyərdən 3,7 dəfə az vəsait istifadə edilib. Son nəticədə proqnozlaşdırılmış 4 film müqabilində 2 film çəkilib. Debüt filmlərinin istehsalı nəzərdə tutulmasa da, il ərzində bu istiqamətdə vəsait istifadə edilib.

Palatanın məlumatına görə, filmlərin smeta dəyərinin düzgün müəyyənləşdirilməməsi bir sıra hallarda ayrılmış vəsaitlərinin istiqamətinin dəyişdirilməsinə səbəb olub, bəzi hallarda isə istehsal dəyərinin düzgün olmayan artımına şərait yaradıb. Belə ki, auditin əhatə etdiyi illərdə seçmə üsulla baxılmış filmlər üzrə bəzi hallarda tələb olunandan artıq vəsaitin nəzərdə tutulması ilə həmin məbləğin digər istiqamətlərə yönəldilməsi halları da müəyyənləşdirilib. Bəzi hallarda seçilmiş senarilər üzrə vəsait ödənişinin növbəti illərdə həyata keçirilməsi hallarına da rast gəlinib. Eyni zamanda, seçmə üsulla baxılmış bəzi filmlərin istehsal dəyərinin, eləcə də studiya xərclərinin artırılması hallarına da yol verildiyi müəyyən edilib. Dövlət sifarişi ilə filmlərin maliyyələşdirilməsi məqsədilə bəzi hallarda müştərək maliyyələşmə mexanizmi tətbiq olunub.



"Yoxlasınlar görək bütün ölkəni bürüyən yüzlərlə kinoteatrları kimlər nə üçün satıb və kinoteatrlarımız niyə sıradan çıxarılıb?"

**Əməkdar incəsənət xadimi, kinorejissor Hüseyn Mehdiyevin "Şərq"ə açıqlamasına görə, Hesablama Palatasının filmlərin çəkilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsi ilə bağlı açıqladığı məlumatlar çox ciddi ittihamdır:** "Mən bu materialı obyektiv hesab etmirəm. Dövlət sifarişi ilə çəkiləcək filmlərin ictimai- sosial maraqlara uyğunluğu və seçim prosedurlarının seçim prosesinin natamamlığı ilə bağlı gəldikləri qənaət birtərəfli mövqedir. Əhatəli araşdırma aparmadan, problemi yaradan səbəbləri araşdırmadan bu cür hesabat yaymaq peşəkar yanaşma deyil. Palatanın hesabatı filmlərlə bağlıdır. Azərbaycanda film bazarı ilə bağlı Hesablama Palatasının bir fikri varmı?! Azərbaycanda istehsal olunan filmlərin geniş kütləyə çatdırılması üçün yetərli mexanizm varmı?! Telekanallarının televiziya sənayesini inkişaf etdirmək əvəzinə film istehsalı ilə məşğul olması film istehsalının inkişafına birmənalı maneədir. Film, serial çəkmək işi sadəcə peşəkarlara tapşırılsaydı, sənət də inkişaf edəcəkdi, kinematoqrafiya sahəsi də. Bu gün televiziyalar audiovizual, kino sənaye ilə məşğul olur. Halbuki televiziyanın işi şou-proqram, ictimai-siyasi yönümlü tok-şoular, bilik yarışmaları, səhiyyə proqramları və o qədər tamaşaçını cəlb edəcək telejanrlar var ki, yayımlamaqdır".

HP-nin nəticələrini kino sahəsindən, yaradıcılıqdan uzaq olan insanların əhatəsiz və məmur hesabatı adlandıran H.Mehdiyevin fikrincə, Azərbaycan kinosuna, film sənayesinə, ümumilikdə mədəniyyətimizə qarşı bu cür qərəzli yanaşmalar düzgün deyil. Kino çox spesifik sahədir o, mənəviyyatı, ideologiyanı bədii formada çatdırmaqdır, yəni təkcə istehsalat, sənaye yox, həm də yaradıcılıqdır, incəsənətdir. Əgər bədii olmasa, o, əks effekt verəcək. Bunun üçün bu sənətə düzgün münasibət göstərib inkişaf etdirməliyik".

**Kinorejissorun sözlərinə görə, kino sahəsinə laqeyd, peşəkarlıqdan uzaq olan adamların məsuliyyətsizliyi və bacarıqsızlığı nəticəsində film istehsalı bəlli bir maliyyə və iqtisadi çərçivəsinə salınıb:** "Kinoya qarşı belə münasibət peşəkar yanaşma deyil. Bir balaca dünyagörüşü olan adam bilir ki, filmlərin çəkilməsi üçün tələb olunan vəsaitlərin qüsursuz proqnozlaşdırılması mümkün deyil. Kinematoqrafiya çox spesifik bir sahədir. Film sahəsi təkcə sənaye deyil ki, istehsalatdan ibarət olsun. Bu sahədə yaradıcılıq, sənət tələb edir. Film çəkilişi üçün ümumi bir hesablama aparılır, lazımi avadanlıqlar alınır və birdən çəkiliş zamanı rejissor produserə işarə edir ki, "filan şey lazımdır. Halbuki həmin o avadanlıq əvvəldən nəzərdə tutulmayıb və studiyada yoxdur. Deməli ki, sonradan alınır. Film istehsalatında onun xüsusiyyətlərindən çıxan o qədər nüanslar var və ən əsası bunların heç birini qabaqcadan proqnozlaşdırmaq mümkün deyil. İndi nə edək, kino çəkməyək ki, Hesablama Palatası gəlib qüsurlar tapmasın? Hesablama Palatasının əməkdaşları bu və bu kimi digər xırdalıqları bilmir axı?! Kinomuzu bu cür maliyyə çərçivəsinə saldıqları üçün Azərbaycanda bu sahə axsayır, irəli gedə bilmir. Mütləq şəkildə kinematoqraf ümumi çərçivələrdən çıxarılmalı və ona imtiyazlı sahə kimi baxmaq lazımdır.

Hesablama Palatası araşdırma aparmağa belə həvəslidirsə, yoxlasınlar görək bütün ölkəni bürüyən yüzlərlə kinoteatrları kimlər nə üçün satıb və kinoteatrlarımız niyə sıradan çıxarılıb? Şəhərin hər yerində kinoteatr vardı. Bəs indi niyə yoxdur? Binalar niyə satılıb?! Qoy araşdırsınlar, görək televiziyalar niyə televiziya sənayesi ilə yox, kino sənayesi ilə məşğul olurlar? Nə qədər yüksək peşəkarlıqla çəkilmiş sənədli filmlərimiz var. Telekanallar efirə buraxmırmırlar və özləri elə həmin mövzuda sənədli film çəkib efirə verirlər. Niyə? Pulları çoxdur, yoxsa "kinoşnik"lərdən yaxşı kino çəkəcəklər? Kimlərsə televiziya ilə kinematoqrafiyanı çaşbaş salıb. "Əlinin papağı Vəlinin, Vəlinin papağı Əlinin başındadır". Problemlər və suallar gündən-günə azalmaq əvəzinə artır".

Şəymən

# "Bu şəhər ikimizə dar"

## Brilliant Dadaşova pul töksə də, Lalə Məmmədovaya qismət olub

**Müğənni-bəstəkar Murad Arif müəllifi olduğu və Xalq artisti Brilliant Dadaşova ilə Əməkdar artist Lalə Məmmədova arasındakı qalmaqalı daha da alovlandıran "Bu şəhər ikimizə dar" mahnısından danışıb.**

Sənətçi "O kimdir" proqramında bəstəni Dadaşovaya təqdim etməsini və onu Lalənin oxumasının səbəbini açıqlayıb. Murad bildirib ki, Brilliant bəstəyə pul töküb, aranjiman etdirsə də, təqdim edə bilməyib:



"2007-2008-ci illərdə mahnım partladı. Mən də əsə-əsə Brilliant Dadaşovaya bir bəstə göndərdim. O da yazdı ki, çox gözəldir, mahnı belə olar. Üstündən müəyyən vaxt keçir, mahnımı get-gedə çox sevirəm, mahiyyətini anlayıram. Düşündüm ki, müğənni sevmədi, özünü bu mahnıda görmədi, qəlbimi sındırmır deyə, demir. Qarşı tərəfdən bir mesaj almadım və mahnını göndərdim digər sənət adamlarına: Lalə Məmmədova, Nadir Qafarzadə, Zülfiyyə Xanbabayeva, Abbas Bağırov, İradə İbrahimova, Xatirə İslam, Günay İbrahimli, Günel Zeynalova. Bilirəm ki, yaxşı mahnıdır və çıxartmaq istəyirəm.

Nə bilim ki, Brilliant Dadaşova mahnını o qədər sevib ki, onu Azərbaycanda yox, Türkiyədə hazırlayır. Pul töküb orada aranjiman edib. Fettah Cana pul verib, aranjiman olunub, amma qarşı tərəf mahnını verməyib. Brilliant xanım pul tökür Metin Özülküyə aranjimana verib. Mahnı aranjiman olunur və kompüter yanır. Bu ərəfədə də Lalə Məmmədovadan cavab aldım. Razılaşdıq, pulu qoydum cibimə. Mahnı çıxdı və bildim ki, Brilliant Dadaşovada iki ildir belə talehsizlik yaşanıbmış".



## Əməkdar artist Şuşadakı evini teatra bağışladı

### O bildirib ki, evi dağıdılmayıb, olduğu kimi durur

**Əməkdar artist Yadigar Muradov Şuşadakı evini Şuşa Dövlət Musiqili Dram Teatrına bağışlayıb.**

Aktyor bu haqda "7 Canlı" proqramında danışıb. O bildirib ki, evi dağıdılmayıb, olduğu kimi durur:

"Hazırda evimdə 35 nəfər yaşayır. Onlar Şuşada bərpa işləri görənlərdir. Orada 1 il 8 ay yaşamışdım. Böyük bir evim var idi. Ermənilər də orada hərbi işlər üçün istifadə edirdilər.

Bizim teatrımız yoxdur, dağıdılıb. Biz ömürboyu ikiotaqlı, balaca yerdə məşq etmişik. Evimin birinci mərtəbəsində teatrda çalışan və orada evi olmayanlar yaşaya bilər. Bunun üçün hər bir şərait var. Yuxarıda isə tamaşa oynamaq üçün yerim var".

*Qeyd edək ki, Yadigar Muradov eyni zamanda Şuşa Dövlət Musiqili Dram Teatrının direktorudur.*



## Xatunun evində toy olacaq

**Müğənni Xatun Əliyeva toya hazırlaşır. Axşam.az xəbər verir ki, sənətçi oğlu Adilin toyuna hazırlaşır. Məclis noyabrda keçiriləcək.**

İfaçı toya sənət dostlarını da dəvət edib. Bu haqda Xatun aparıcı Elgiz Əkbərin paylaşdığı videoda deyib.

"Birlikdə universitetdə oxuyublar. Xanım başqa, Adil başqa fakültədə idi. Beş ildir bir-birilərini sevirlər. Son iki ildə bilmişəm sevgilərini. Yaşları da eynidir - 25. Savadlı, tərbiyəli baladır. Üstndə dava idi, biz aldıq. Əsas odur ki, sevgisini gözləyib, ailəmizə sevinc qatdı" deyə, Xatun söyləyib.

*Qeyd edək ki, Xatunun oğlunun nişan xəbəri yayda yayılmışdı.*

## "Əti səhv bişirirsiz, ona görə faydası olmur"

### Canan Karatay faydalı tövsiyyələr verdi



**Tanınmış həkim Canan Karatay əti közləmə bişirməyi tövsiyə edir.**

"Medicina" xəbər verir ki, əti düzgün bişirmədikdə faydalı maddələri itir.

Ət soyuducudan çıxarıldıqdan sonra bir müddət saxlanılmalı və manqalda bişirildikdən sonra ona duz səpilməlidir.

Tava kabablarında darçın və ya mixək istifadə edilə bilər. Qara istiot istənilən ətə yaxşı dad verir.

Saxsı qablarda ət az yağ əlavə edilərək vam odda heç bir su əlavə olunmadan, buraxdığı su çəkilənə qədər bişirilir. Ətin rəngi tündləşməməlidir.

Ət əgər tək bişirilirsə ona çox az isti su əlavə edilməlidir. Duzunu isə öncədən atmaq olmaz, çünkü duz onu sərtləşdirəcək.

Proteini artırmaq üçün ətə müxtəlif tərəvəzlər (kərəviz, kök, soğan, sarımsaq və.s.) əlavə edə bilərsiniz.

Ətlər sobada tərəvəzlə birgə bişirilərsə həm yumşaq olar, həm də vitaminlərini itirməz.

Ən düzgün bişirilməsi də yağsız sobada bişirməkdir.

# Boşanmaq qərarı baha başa gəldi

## Küçənin ortasında arvadını güllələdi

**Ankarada gözətçi işləyən Bülent U. (31) boşanmaq istəyən həyat yoldaşı Tuğba U.-ya (29) küçənin ortasında tapança ilə xəsarət yetirib. Qaçan zaman kameralara tuş gələn Bülent U. daha sonra yaxalanaraq nəzarətə götürülüb.**



"Şərq" türk mediasına istinadən xəbər verir ki, hadisə axşam saatlarında Altındağ mahalı Başak məhəlləsi, küçə 1699-da baş verib. Tuğba U. 9 illik həyat yoldaşı, bazar və məhəllə gözətçisi işləyən Bülent U. ilə şiddətli dava səbəbindən 1 il əvvəl ayrılmaq qərarına gəlib. Tuğba U. ərindən boşanmaq üçün məhkəməyə müraciət edib. Boşanma mərhələsində ərinin onu davamlı narahat etməsindən sonra onu uzaqlaşdırmaq qərarına gəlib.

Bülent U. dünən həyat yoldaşı ilə danışmaq üçün görüşüb. Cütlük arasında mübahisə yaranıb. Bülent U. mübahisə zamanı silahını çıxararaq küçənin ortasında arvadının ayaqlarına 3 dəfə atəş açıb. Tuğba U. qanlar içində yerə yıxılıb, Bülent U. hadisə yerindən qaçıb. Onun hərəkətləri ətrafdakılar tərəfindən cib telefonunun kamerası ilə anbaan lentə alınıb.

Xəbərdarlıq üzərinə hadisə yerinə polis və sağlamlıq qrupu göndərilib. Tuğba U. hadisə yerində edilən ilk müdaxilədən sonra təcili yardımla Ankara Təhsil və Araşdırma Xəstəxanasına aparılıb. Tuğba U.-nun həyatı üçün təhlükə olmadığı bildirilib. Polisin apardığı araşdırmalar nəticəsində şübhəli Bülent U. tutularaq saxlanılıb. Hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

**Turan**

# Liftdə "salam" verdiyi şəxs Bəhrama əsəbiləşdi

**Əməkdar artist Bəhram Bağırzadə liftdə başına gələn hadisəni instaqramında yayımlayıb.**



Axşam.az xəbər verir ki, aktyor "salam" verdiyi şəxsin ona əsəbiləşdiyini deyib:

"Rəhmətlik atam həmişə bizə öyrədirdi ki, səhər ilk gördüyünüz adamla salamlaşın və çalışın birinci "salamı" siz verin. Deyirdi ki, böyüklərə əl uzatmayın, "salam" verin, əgər ağsaqqal sizə əl uzadırsa, onda siz də əl uzadıb salamlaşa bilərsiniz. Bu gün səhər liftə daxil oldum. Liftdə təxminən 60 yaşlı bir kişi var idi. Ona "salam" verdim. Dedim, salam, sabahınız xeyir. Kişi məni altdan-yuxarı süzüb, dedi, mənimləsən? Cavab verdim ki, xeyr, üzr istəyirəm".

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3071



## Skuterdə inanılmaz mənzərə!

### Biri körpə olmaqla 3 nəfər hərəkət edir

**Türkiyənin Adana şəhərində küçələrdən birində qeyri-adi hadisə yaşanıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, qucağında körpə olan qadın skuterlə hərəkət edərkən mobil telefonun kamerasına düşüb.

Məsələ burasındadır ki, skuterdə təkcə ana və uşaq olmayıb, eyni zamanda üçüncü bir şəxs də onlarla bərabər olub.

Həmin anlar başqa bir şəxs tərəfindən mobil telefonla lentə alınıb. Sosial şəbəkələrdə paylaşılan görüntülər reaksiyalara səbəb olub.

**Turan**

## Alimlər açıqladı

### Ekvadorda 6 yeni qurbağa növü aşkar olunub



**Alimlər Ekvadorda 6 yeni yağış qurbağası növü kəşf etdiklərini açıqlayıblar.**

BBC-nin xəbərinə görə, Ekvadorda And dağlarının ətəyində yerləşən iki milli parkda 6 yeni növ tapılıb.

Ümumdünya Təbiəti Mühafizə Birliyi (IUCN) nəsli kəsilmək təhlükəsi ilə üzləşən bu 6 növün qırmızı siyahıya salınmasını tövsiyə edib.

Elm adamları, bir çox fərqli qurbağa növləri olan Kolumbiya və Ekvadorda kəşf edilməyi gözləyən bir çox tısbağa növünün olduğunu da düşünürlər.

**Turan**

## 103 yaşlı kişi ən yaxşı səhər yeməyini açıqladı



**ABŞ-ın 103 yaşlı sakini növbəti ad günündə uzunömürlülük sirlərindən açıb.**

"Medicina" xəbər verir ki, Texas ştatında yaşayan Co Ferrerini şəhərin meri, qubernatoru təbrik edib.

O, necə bu qədər yaşaya bilib suallarına cavab verib.

"Mən sağlam qida yeyirəm, yaxşı yatıram, spirtli içmirəm. Çoxdan tərgitmişəm. Hər səhər bekon, avokado yeyirəm. Daha sonra itlə gəzirəm, idman edirəm. Bu səhər yeməyindən sonra özümü gümrah hiss edirəm"

## Qoyunlar sakinlərin üzərinə şığıdılar

### Qısa müddət sonra sahibləri onları tutaraq sürüyə qaytarıblar



**Türkiyənin Kocaeli şəhərində sürüdən ayrı düşən qoyunlar piyadaların və nəqliyyat vasitələrinin üstünə şığıyıblar.**

Oxu.az xəbər verir ki, şəhər sakinləri görüntüləri sosial şəbəkələrdə paylaşıblar.

Qısa müddət sonra sahibləri onları tutaraq sürüyə qaytarıblar.





# Kollecdən başlanan karyera...

## Britaniyanın yeni birinci xanımı var-dövləti ilə diqqət çəkir

**Rişi Sunak Böyük Britaniyada baş nazir olduqdan sonra gözlər yeni birinci xanım Akşata Murtiyə çevrildi. Murti zənginliyi və dəbdəbəli geyimlərə olan marağı ilə diqqət çəkir.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Britaniyanın yeni hind əsilli Baş naziri Rişi Sunakın həyat yoldaşı Akşata Murti "Hindistanın Bill Geytsi" kimi tanınan ən zəngin iş adamlarından biri, milyarder Narayana Murtinin qızıdır.

Murti ABŞ-ın Kaliforniya ştatındakı "Claremont McKenna" kollecində oxuyub. Amma o, diplomunu moda ixtisası üzrə alıb. Daha sonra o, "Deloitte" audit firmasında və qlobal qida və kosmetika nəhəngi "Unilever"də çalışaraq Stanford Universitetində magistr dərəcəsi qazanıb.

Universitetdə tanış olduğu Sunakla 2009-cu ildə ailə həyatı qurub və iki övladı olub.

Murti karyerasına Kaliforniyada maliyyə sənayesində başlayıb, sonra öz moda brendi "Akşata Designs"i yaradıb. Bu moda evi ilk kolleksiyasını 2011-ci ildə təqdim edib. Sonradan bu şirkət bağlanıb. İndi Murtinin "LinkedIn" profili də onun lüks kişi geyimləri şirkəti "New & Lingwood"un direktoru olduğunu göstərir.

Məlum olub ki, var-dövləti və dəbdəbəli geyimlərə olan marağı ilə diqqət çəkən Murti xaricdə yaşadığını və İngiltərə xaricində əldə etdiyi gəlirdən vergi ödəmədiyini bəyan edib və bu hüquqi vəziyyətin müzakirələrə səbəb olmasından sonra Murti ölkədə vergi ödəməyə razılaşıb.

**Turan**

**Yağışlı bir gündə evdəykən insanın başına nə gələ bilər? İngiltərədə yaşayan qadının həyatı məhz yağışlı bir gündə, ildırım çaxmasıyla kabusa dönüb. Telefon zənginə cavab vermək istəyən 30 yaşlı qadın dəstəyi qaldırdığı anda bədəninin sağ tərəfində şiddətli ağrı hiss edib.**

Ağrıdan bayılaraq yerə yıxılıb. Oyandıqda isə gördüyü mənzərə önündə şoka düşüb. Qadının bədənində yanıq, qızartı izləri vardı. Qarmaqarışıq xətlər, cızıqlar az qala bir xəritəni xatırladırdı. Bunlar ildırım vasitəsilə göy üzündən insan bədəninə düşən izlərdir. Hadisədən sonra evə gələn yaxın



# Bədəni xəritəyə dönüb

## İldırım vuran insanlar "Lichtenberg" kabusu yaşayır

qohumları qadını xəstəxanaya aparıb. Şüuru yerində olsa da, qadın qarşılaşdığı mənzərə qarşısında şok vəziyyətindən çıxa bilməyib. Həkimlər nə baş verdiyini müəyyənləşdirmək üçün test aparıblar. Məlum olub ki, qadının sağ qulağının pərdəsi zədələnib. Beyin və gözlərlə bağlı dəyişiklik olmayıb. Həkimlər qadının bədənində əmələ gəlmiş xətt və cızıqların səbəbini isə tapa bilməyiblər. Uzun müddət keçdikdən sonra məlum olub ki, bu, tibdə adına "Lichtenberg şəkilləri" deyilən əlamətdir. Əlamətin sirri isə min illər öncədə gizlənir. Alman fiziki Georg Kristof Liktenberq, 1700-cü illərdə bədənində müxtəlif xətlər, cızıqlar ortaya çıxan bir neçə adamla qarşılaşıb. Bu insanların yaşadıqları araşdırıldığında məlum olub



ki, onların hər biri fərqli vaxtlarda ildırım vurmasına məruz qalıblar. Fizik bədəndə əmələ gələn şəkillərin ildırım vurması nəticəsində əmələ gəldiyini müəyyən edib. Ağac budaqları, or köklərinə bənzəyən bu cür şəkillər dəri altındakı kapilyar damarların partlaması nəticəsində yaranır. Damarların partlamasına isə insanı ildırım vurması səbəb olur. İldırım insan bədəniylə təmas etdikdə isə yaranan gərginlik səbəbindən damarlarda partlama əmələ gələ bilir. Fizik ildırım vurması nəticəsində bədəndə yaranan şəkillərin 24 saat içində itib getdiyini də deyib. Lakin şəkillərin qısa və ya uzun müddət sonra itməsi bədənə düşən elektrik yükünün ağırlığına da bağlıdır. Elektrik yükünün həcmi böyük və ağırdırsa, görməni zəifləda, mərkəzi beyin sistemini zədələyə bilər. İldırım vurması nəticəsində ölənlərin sayı isə 100-də 10 hesablanıb. Bu cür hadisələrin 100-də 90-da dəri altında müxtəlif şəkillər əmələ gəlir. Evində olduğu halda telefon xəttiylə ildırım vurmasına məruz qalmış ingilis qadının bədənində əmələ gəlmiş şəkillər də qısa müddətdə silinib. Amma hadisənin psixoloji təsiri uzun müddət davam edib.

**Məlahət Rzayeva**